KHAZAR REVIEW
№ 389 Noyabr 2019

# XƏZƏR XƏBƏR



AYLIQ DƏRGİ
ISSN 2218-2772
khazar-review.khazar.org








# İÇİNDƏKİLƏR


Universitet xəbərləri.......................................... 4

Xəzər Universitetində "Bilik yarışı" ................................ 6

İnşaat mühəndisliyi ixtisasının tələbələri "Norm" sement zavodunda ..... 11

Azərbaycanda CRISPP texnologiyasına həsr olunmuş ilk təlim kursu...... 16

Professor Hamlet İsaxanlı AMEA Riyaziyyat və Mexanika İnstitutunun 60 illik yubileyinə həsr olunmuş beynəlxalq konfransda ................ 24

Vurğun Əyyubun doğum günü münasibətilə tədbir ..................... 26

Təbiət elmləri və mühəndislik fakültəsinin məzunları dünyanın müxtəlif ölkələrində ...................................................... 30

AMEA Nizami adına Ədəbiyyat İnstitutunun xəbərləri................... 36

Coğrafiya və ətraf mühit departamentinin tələbələri Altıağacda............ 40

Tələbələr daun sindromlu uşaqlara baş çəkdilər ........................ 42

Aİ-nin Azərbaycandakı nümayəndəliyi rəhbərinin Xəzər Universitetində seminarı.................................................... 50

NDU xəbərləri ................................................. 54

Dünya Vahid Sağlamlıq Gününə həsr edilmiş üçüncü simpozium ........ 56

Xəzər Universitetində "Xəzər"də qlobal imkanlar" mövzusunda tədbir ... 60

Xəzər Universitetində nanotexnologiya laboratoriyası: nailiyyətlər və yeni mərhələlər ............................................... 66

Xəzər Universiteti "Əcdadların xatirəsi günü"nü Meksikanın Azərbaycandakı səfirliyi ilə birlikdə qeyd etdi ........................ 70

Doktorant və magistrantlar Nar festivalında ........................... 72

Dekan tələbələri təbrik etdi ........................................ 76



1995-ci ilin yanvarından nəşr olunur

Təsisçi:
Xəzər Universiteti

Baş redaktor:
Hamlet İsaxanlı

Baş redaktor müavini:
Əlirza Balayev

Redaksiya heyəti:
İsa Həbibbəyli
Alla Axundova
Şahin Fazil
Knyaz Aslan

İngilis dilində mətnlərin redaktoru:
Eynur Mehdiyev

Kompüter tərtibatçısı:
Günel Əkbərova

Foto:
Multimedia Mərkəzi

Address:
41 Mahsati str., Baku
(near the "Neftchilar" metro)
Tel.: (+99412) 323 93 13
(+99412) 421 10 93 (209)
GSM: (+99450) 321 31 69
Faks: (+99412) 493 93 79
E-mail: xazarxabar@khazar.org
Certificate: 376
Index: 67178
Copies: 3000

It has been published since January 1995

Founder:
Khazar University

Editor-in-chief:
Hamlet Isaxanli

Associate editor:
Alirza Balayev

Editorial members:
Isa Habibbayli
Alla Akhundova
Shahin Fazil
Knyaz Aslan

Editor of English Texts:
Eynur Mehdiyev

Computer graphics:
Gunel Akbarova

Photo:
Multimedia Centre

# HAMLET İSAXANLI "PAŞA OXUCULAR BİRLİYİ" LAYİHƏSİNİN PANELÇİSİ OLDU

# HAMLET ISAKHANLI TOOK PART AT "PASHA READERS UNION" PROJECT AS THE PANELIST

Oktyabrın 12-də Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı PAŞA Holding və PAŞA Sığortanın birgə təşəbbüsü ilə başlanan "PAŞA Oxucular Birliyi" layihəsinin "Bulvar otel"də keçirilən açılış tədbirində panelçi olaraq iştirak etdi.

Layihənin məqsədi şirkətin əməkdaşlarının dünyagörüşünü, məntiqi-analitik təfəkkürünü artırmaq, onlarda mütaliəyə və davamlı təhsilə marağı gücləndirmək üçün ölkənin dəyərli yazıçıları, şairləri və ziyalıları ilə silsilə görüşlər təşkil etməkdir. Digər üç panelçinin də iştirak etdiyi bu açılış tədbirində professor Hamlet İsaxanlı müzakirələrdə işirak etdi və suallara cavab verdi.

On October 12, Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, participated at the opening ceremony of the "PASHA Readers Union" project held at the Bulvar Hotel, initiated by PASHA Holding and PASHA Insurance. The aim of the project is to arrange a series of meetings with outstanding writers, poets, and intellectuals of the country to enhance the outlook, logical and analytical thinking of the company's employees and to increase their interest in reading and continuing education. At this opening ceremony, attended by other three panelists, Professor Hamlet Isakhanli took part and answered questions.

# VURĞUN ƏYYUBUN ADINA TƏQAÜD TƏSİS OLUNDU

# SCHOLARSHIP ESTABLISHED IN THE NAME OF VURGUN AYYUB

1992-ci ildə Türkiyədə təhsil almış bir qrup məzun tərəfindən Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsi Dillər və ədəbiyyatlar departamentinin sabiq müdiri dosent Vurğun Əyyubun xatirəsinə "Vurğun Əyyub Təqaüd Proqramı" təsis edilmişdir. Təqaüd proqramının məqsədi Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ilk sədri olmuş, Azərbaycanda ilk dəfə tətbiq edilən test üsulu ilə ali məktəblərə qəbul prosesinin həyata keçirilməsinə rəhbərlik etmiş, Azərbaycan təhsilinin inkişafına töhfələr vermiş dosent Vurğun Əyyubun adını yaşatmaq, eyni zamanda, bakalavr və magistr tələbələrinə təhsil aldıqları müddətdə təhsillərini uğurla davam etdirmələrinə dəstək olmaqdır.

Daha geniş məlumatı bu link vasitəsilə əldə etmək olar:

***https://edumap.az/vurgun-eyyub-adina-teqaud-proqrami-tesis-edilib/?fbclid=IwAR2wakquHTsoJK9ywb01OFYnqpZFUsdl08WUzITfG2t7fXyOaSX5Uf5Fj_A***

The group of alumni of 1992 class, educated in Turkey established the "Vurgun Ayyub Scholarship Program" in memory of Associate Professor Vurgun Ayyub, the former Head of the Department of Languages and Literature at the School of Humanities, Education and Social Sciences, Khazar University. The purpose of the scholarship program is to make the name of Vurgun Ayyub live, who was the first Chairman of the State Student Admission Commission, to lead the process of admission to universities through the testing method, introduced for the first time in Azerbaijan and to contribute to the development of Azerbaijani education, and at the same time to render support for bachelor and master students to continue their education successfully.

More information is available at the following link:

***https://edumap.az/vurgun-eyyub-adina-teqaud-proqrami-tesis-edilib/?fbclid=IwAR2wakquHTsoJK9ywb01OFYnqpZFUsdl08WUzITfG2t7fXyOaSX5Uf5Fj_A***






# HEÇ KİMƏ BƏNZƏMƏYƏN QƏRİBƏ ADAM

Mənim bir dostum var - bənzərsiz, mehriban, bir qədər də qəribə insandır O! Adı da bənzərsiz, bir qədər də qəribədir – Dərsəxan! "Kitab-i Dədəm Qorqud"dakı Dərsə xan və ya Dirsə xandan götürülüb. Təbii ki, ad qoyanda ya uşağın məxsus olduğu nəslin keçmiş bir üzvü anılır, ya da istedadlı bir şəxs və ya bir qəhrəman adına müraciət edirlər. Dərsəxan ən az rast gəlinən adlardan biridir, heç bilmirəm ikinci bir Dərsəxan varmı bizim eldə? Amma, bir şeyi dəqiq bilirəm – dostum Dərsəxana bənzəyən ikinci bir şəxs yoxdur!

Dərsəxanın 70 yaşı tamam olur. Gürcüstanda, Qardabani (Qarayazı) rayonunun Kosalı kəndində, orta məktəbdən başlanan dostluğumuz Bakıda, ali təhsil aldığımız dövrdə davam etdi, bərkidi. Dərsəxan doğma kəndə döndü, təsərrüfatda, idarəetmə işində və orta məktəbdə çalışdı. Və... həyata baxışı, sözə münasibəti, səmimiliyi, düzlüyü, xeyirxahlığı, xoş xasiyyəti və ürək yumşaqlığı ilə tanındı, sevildi və qəribə də olsa, qınandı... Dostum Dərsəxanın bütün insani keyfiyyətləri göz qabağında olsa da, ona "qəribə adam" da deyirlər. Nə üçün? Sadaladığımız və sadalamadığımız müsbət keyfiyyətləri həddini aşdığına görə! Qəribə deyilmi?!

Alman-yəhudi yazıçı Lion Feytxvanger (Feuchtwanger) məşhur qəribə adam – Jan Jak Russo (Jean-Jasques Rousseau) haqqında yazdığı kitabı "Qəribə adamın müdrikliyi" (Narrenweisheit oder Tod) adlandırmışdı. Dərsəxanı qəribə göstərən onun bir qədər qeyri-adi düşüncə tərzi və müdrikliyi, rəngli söz dağarcığı, ictimai hadisələrə fərqli münasibəti və "lazım gəldiyindən çox" xeyirxahlığıdır.

Əzizim Dərsəxan, yoluna davam et! Ağlına gələni saxlama, danış! Xeyirxahlıqda, mehribanlıqda, ətrafa xoş münasibətdə həddini aş! Həddini aşanlardır Dünyanı dəyişdirənlər!

**Hamlet İsaxanlı**

# "EL VƏTƏNDAŞI" – DƏRSƏXAN MAHMUDOV

Dərsəxan Mahmudov istənilən məsələ ilə bağlı həmişə öz orijinal fikri olan bir eloğlumuzdur. Ümumiyyətlə, Dərsəxanın nəinki öz fikirlərində, elə praktik həyatda da, heç kimə bənzəməyən orijinal bir insan olmasını, sənətə, gözəlliyə inanılmaz vurğunluğunu onun ata ocağına qədəm qoyduğun andan hiss edirsən. Açıq havada kiçik muzey təsiri bağışlayan, keçmişə ehtiram, bu günə inam, gələcəyə ümid üstündə köklənmiş, səmimi hisslərlə yaradılmış bu sadə gözəlliyi seyr etdikcə onun müəllifinin - Dərsəxan Mahmudovun iç dünyası taybatay açılır qarşımızda.

Dərsəxanın yaradıcı düşüncəsi, səmərəli fikirləri, dünyaya, həyata, insanlara, insanlığa özünəməxsus fəlsəfi baxışları onu digərlərindən ciddi şəkildə fərqləndirən xüsusiyyətlərdir. Bir şəxsiyyət kimi, Dərsəxanın ayrıcalığı da, məhz bəziləri tərəfindən heç də birmənalı qəbul edilməyən bu xüsusiyyətlərdədir. Bu xüsusiyyətlərin üstünə ondakı el-obaya bağlılığı, xeyirxahlığı, nikbinliyi, həyatsevərliyi, haqsevərliyi, saflığı, dürüstlüyü, səmimiliyi, şuxluğu, sadəliyi, bir qədər də sadəlovhlüyü gəlsək, gözlərimiz önündə əsl "el vətəndaşı" obrazı canlanar.

Əzizim Dərsəxan! 70 yaşın mübarək olsun!
Üçrəqəmli yubileyə doğru yolda sənə uğurlar!

**İsaxan İsaxanlı**




# XƏZƏR UNİVERSİTETİNDƏ "BİLİK YARIŞI"



Oktyabrın 15-də Xəzər Universiteti Tələbə Məclisinin təşkilatçılığı ilə universitetin Mərmər salonunda tələbələrarası "Bilik yarışı" keçirildi. Tələbə Məclisinin vitse-prezidenti, Humanitar, təhsil və sosial elmlər fakültəsinin dördüncü kurs tələbəsi Emil Ağayevin rəhbərliyi və tələbə Leyla Əfəndiyevanın aparıcılığı ilə keçən tədbirdə universitetin rəhbərliyi, tələbələr və media mənsubları iştirak edirdilər. Tələbələrdən ibarət könüllülər yarışın təşkilində və keçirilməsində yardım göstərirdilər.

Yarışa hərəsi dörd nəfərdən ibarət iyirmi komanda qatılmışdı. Münsiflər heyəti universitetin tələbələri - Əmir Mehrəliyev, Ağamehdi Dadaşov, Afelya Qoca, Aysel Göyyusubova və Fatimə Babaxanovadan ibarət idi.

*(Ardı səh.8-də)*








# "KNOWLEDGE CONTEST" AT KHAZAR UNIVERSITY

On October 15, "Knowledge Contest" was organized among the students by the Student Assembly at Khazar University's Marble Hall.

The event was led by Emil Aghayev, Vice President of Student Assembly, 4th-year student of the School of Humanities, Education and Social Sciences and student Leyla Efendiyeva, and attended by the University administration, students and members of the media. Student volunteers assisted in organizing and conducting the competition.

Twenty teams of four people each participated in the competition. The jury consisted of the students of the university - Amir Mehraliyev, Aghamehdi Dadashov, Afelya Goja, Aysel Goyyusubova and Fatima Babakhanova.

*(To be continued page 8)*












İştirakçı komandalar yarışm şərtləri ilə tanış edildikdən sonra başlanan ilk mərhələnin nəticələrinə görə üç komanda – "Mirvari", "Stonks" və "Joker" komandaları finalda yarışmaq hüququ qazandılar. Gərgin keçən finalda münsiflər heyətinin qərarı ilə birinci yer "Mirvari", ikinci yer "Stonks" və üçüncü yer "Joker" komandalarına verildi.

Qalib komandanın üzvləri – Humanitar, təhsil və sosial elmlər fakültəsinin üçüncü kurs tələbələri - Nicat Həmzəli, Lala Bağırova, Məhəmməd Rəhimli (regionşünaslıq ixtisası) və Aydan Camalzadə (dizayn ixtisası) sertifikatla təltif olundular. Komandaya üç yüz manat məbləğində pul mükafatı verildi.

Tədbir İctimai Televiziyanın "Müasir Azərbaycan Gənci" (MAG) verlişində yayımlandı. Verilişə bu link vasitəsilə baxmaq olar:

*https://www.youtube.com/watch?v=8XctaM5Nj5c*

After the participating teams became familiar with the terms of the competition, as a result of the first round, three teams - "Mirwari", "Stonks", and "Joker" won the right to compete in the finals. In the tense final, by the decision of the jury, the first place was awarded to the "Mirvari", the second place to the "Stonks" and the third to the "Joker" accordingly.

The winning team members - the 3rd-year students of the Sschool of Humanities, Education and Social Sciences - Nijat Hamzali, Lala Baghirova, Mahammed Rahimli (majoring in regional studies) and Aydan Jamalzade (majoring in design) were awarded with certificates. The team was awarded a cash prize of three hundred manats. The event was broadcasted on Public TV's MAG program. The program can be viewed at this link:

*https://www.youtube.com/watch?v=8XctaM5Nj5c*




MİRVARİ






THE END




# UNİVERSİTET VƏ BANK ARASINDA ƏMƏKDAŞLIQ MEMORANDUMU İMZALANDI

Oktyabrın 16-da Xəzər Universiteti ilə "PAŞA Bank" ASC arasında "Əməkdaşlıq haqqında Memorandum" imzalandı. Memorandumun imzalanmasında Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, İqtisadiyyat və menecment fakültəsinin dekanı Dr. Ceyhun Məmmədov, "PAŞA Bank" ASC-nin İdarə heyətinin üzvü, Baş əməliyyat inzibatçısı Cəlal Orucov, İnsan resursları üzrə biznes tərəfdaşları Orxan Əliyev və Afət Bağırova iştirak etdilər.

Memorandumda nəzərdə tutulduğuna əsasən, universitet və bank arasında birgə əməkdaşlığın əsas məqsədi biznes proseslərində təhsil (elm) və informasiya texnologiyalarına innovasiya nailiyyətlərinin tətbiqi, təhsil və bank sahələrində innovasiya fəaliyyətinin birgə həyata keçirilməsi, təhsil və bank xidmətləri sahəsində müasir texnologiyaların və elmi inkişafın istifadəsində qarşılıqlı əlaqələndirmə, təhsil və bank xidmətləri sahəsində birgə seminar, təlim, konfrans və digər təhsil tədbirlərinin təşkili və həyata keçirilməsi, bankda universitet tələbələri üçün staj keçirilməsi barədə tərəflər arasında sabit əlaqələrin qurulmasından və s. ibarətdir.

# MEMORANDUM OF COOPERATION SIGNED BETWEEN UNIVERSITY AND BANK

On October 16, Khazar University and "PASHA Bank" OJSC signed a "Memorandum of Cooperation". During the signing ceremony of the Memorandum, Associate Professor Irada Khalilova, Rector of the University, Dr. Ceyhun Mammadov, Dean of the School of Economics and Management, Jalal Orujov, Board Member of PASHA Bank, Chief Operating Officer, and Human Resources Business Partners Orkhan Aliyev and Afat Baghirova took part.

According to the Memorandum, the main purpose of the cooperation between the University and the Bank is the application of innovative achievements in education (science) and information technologies in business processes, joint implementation of the innovative activities in education and banking, joint interaction in the usage of the modern technologies and scientific development in education and banking services, co-organization and implementation of joint seminars, trainings, conferences and other educational activities in the field of education and banking services, establishment of stable relationships between the parties, particularly regarding the internship for the university students, etc.





# İNŞAAT MÜHƏNDİSLİYİ İXTİSASININ TƏLƏBƏLƏRİ "NORM" SEMENT ZAVODUNDA

Oktyabrın 17-də Xəzər Universitetinin İnşaat mühəndisliyi departamenti ilə "Norm" sement zavodu arasında əldə olunmuş razılaşmaya görə inşaat mühəndisliyi ixtisasının tələbələri departamentin müdiri Rasim Bayramlının rəhbərliyi ilə "Norm" sement zavodunda oldular. Tələbələr zavodda aparıcı mütəxəssislərin mühazirələrinə qulaq asdılar və istehsal prosesində sement istehsalında istifadə olunan xammal və materiallar, onların tərkibinin seçilməsi, sobalarda bişirilmə prosesi, klinkerin üyüdülməsi və s. bütövlükdə istehsal prosesini əyani müşahidə etdilər. Bundan başqa, tələbələr Avropa standartlarına uyğun fəaliyyət göstərən beton və sement laboratoriyalarında aparılan fiziki-mexaniki sınaqlarla da ətraflı tanış oldular.

Görüşün hər iki tərəf üçün səmərəli olduğdunu nəzərə alaraq, gələcəkdə də əməkdaşlığın davam etdirilməsi barədə razılıq əldə olundu.

Zavodun *norm.az* xəbər portalı bu barədə "Xəzər Universitetinin tələbələri Norm Sement-in qonağı oldular" sərlövhəli geniş xəbər və fotolar dərc etmişdir:

*https://www.norm.az/press/news/20191023121153499.html*

# CIVIL ENGINEERING STUDENTS VISITED "NORM" CEMENT PLANT

On October 17, under the agreement reached between Khazar University's Department of Civil Engineering and the "Norm" Cement Plant, students majoring in Civil Engineering visited the "Norm" Cement Plant, supervised by Rasim Bayramli, Head of the Department. Students listened to the lectures of the leading experts at the Plant and learned about the raw materials and materials used in the cement production process, the selection of their ingredients, the process of heating in ovens, clinker grinding, etc., they observed every production process visually. In addition, students were familiarized with physical and mechanical tests conducted in concrete and cement laboratories operating in accordance with European standards.

Taking into account the effectiveness of this meeting, it was agreed to continue cooperation in the future.

The Plant's *norm.az* news portal has published an extensive report and photos entitled "Khazar University Students Visited Norm Cement":

*https://www.norm.az/press/news/2019102312115*









## PSİXOLOGİYA DEPARTAMENTİNİN KOORDİNATORU "AZARKEŞ MƏDƏNİYYƏTİ" MÖVZUSUNDA ÇIXIŞI

## COORDINATOR OF PSYCHOLOGY DEPARTMENT DELIVERS TALK ON "FANS CULTURE"

Oktyabrın 17-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru və Xəzər Psixoloji Xidmət Mərkəzinin rəhbəri psixoloq Mələk Kərimova İçtimai Televiziya kanalının "Səhərə saxlamayaq" verilişində "Azarkeş mədəniyyəti" mövzusunda çıxış etdi. O, insanın azarkeş olma səbəbləri arasında bir yerə aid olma, birlikdə hərəkət etmə kimi faktorların əhəmiyyətli olduğunu, azarkeşlərin tribunalarda uyğunsuz hərəkətlərinin qəbuledilməzliyini və bəzi "azarkeş" qruplarının isə oyundan daha çox qarşıdurmalar yaradaraq zövq aldıqlarını qeyd etdi.

Psixoloq xüsusən bu tip azarkeşlərə qarşı diqqətli davranmağın zəruri olduğunu söylədi və gənçləri belə "patoloji azarkeşlərin" qurbanına çevrilməməyə çağırdı.

Verilişi bu link vasitəsilə izləmək olar:

*https://www.facebook.com/khazarpsych/videos/360995088025950/*

On October 17, Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service, made a presentation on "Fans Culture" on the Public Television Channel's "Sahara Sahlamayaq" TV program. Among the reasons for being a fan, she indicated the factors such as belonging to some group and moving together are important, and the inappropriate behavior of the fans on the stage is unacceptable, and some "fan" groups enjoy the goal of creating more confrontations than the performance itself.

The psychologist especially urged that this type of fans should be treated with caution, and encouraged the youngsters not to fall victim to such "pathological fans".

The program can be viewed at this link:

*https://www.facebook.com/khazarpsych/videos/360995088025950/*

## SİYASİ ELMLƏR VƏ FƏLSƏFƏ DEPARTAMENTİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ YAYIMLANIB

## ARTICLE BY FACULTY MEMBER OF THE POLITICAL SCIENCE AND PHILOSOPHY DEPARTMENT PUBLISHED

Xəzər Universiteti Siyasi elmlər və fəlsəfə departamentinin müəllimi, fəlsəfə doktoru Anar Cəfərovun Bakı Araşdırmalar İnstitutunun saytında "Həqiqət"in mənası barədə" adlı yeni məqaləsi yayımlanmışdır. Müəllif məqalədə "həqiqət" kimi çoxmənalı sözlərin dilimizdə fəlsəfi termin olaraq istifadəsi zamanı yaratdığı problemə toxunmuşdur. Bundan əlavə, müəllif "həqiqət" termini nümunəsində azərbaycandilli fəlsəfi ədəbiyyatda əsas fəlsəfi terminlərin mənası ilə bağlı qənaətbəxş razılaşmanın olmadığını və həmin terminlərin istifadəsinin bir sıra hallarda məşhur xarici fəlsəfi nəşrlərdəki müvafiq terminlərin mənaları ilə üst-üstə düşmədiyini göstərməyə çalışmışdır.

Məqaləni bu link vasitəsilə oxumaq olar:

*https://bakuresearchinstitute.org/az/həqiqətin-mənasi-barədə/*

An article on "The Meaning of the Truth" by Dr. Anar Jafarov, a full-time lecturer in the Department of Political Sciences and Philosophy at Khazar University, has been published on the website of Baku Research Institute. In this paper, the author focuses on the problem that "truth" ("həqiqət") as an ambiguous term creates for its philosophical use. Moreover, on the basis of "truth" as an example, the author tries to show that there is no satisfactory convention concerning the meaning of central philosophical terms among Azerbaijani philosophers, and that, in some cases, the meaning of those terms do not coincide with the meaning of corresponding terms used in the well-known foreign philosophical publications.

The article can be found at the following link:

https://bakuresearchinstitute.org/az/həqiqətin-mənasi-barədə/



# TƏLƏBƏLƏR HƏRB TARİXİ MUZEYİNDƏ

# STUDENTS VISITED MILITARY HISTORY MUSEUM

Oktyabrın 18-də Xəzər Universiteti İqtisadiyyat və menecment departamentinin turizm və otelçilik ixtisasının tələbələri departamentin müəllimi Dr. Kamran Behbudovun başçılığı ilə Azərbaycan Hərb Tarixi Muzeyində oldular. Səfər 18 Oktyabr – Azərbaycan Respublikasının Müstəqilliyinin Bərpası Gününə həsr olunmuşdu. Əsas məqsəd tələbələri milli ordumuzun şanlı tarixi və unudulmaz qəhrəmanlarımızın şücaəti barədə məlumatlandırmaq, onlara milli-mənəvi dəyərləri əyani şəkildə aşılamaq idi.

Tədbir zamanı muzey əməkdaşları tələbələrə Azərbaycan müasir hərb sənayesinin, elminin, tarixinin inkişafı, habelə, qanlı Qarabağ döyüşləri və muzeydə saxlanılan bir çox silah, ağır artilleriya qurğuları haqqında məlumat verdilər.

Tədbir diskussiya ilə başa çatdı.

On October 18, students, majoring in Tourism and Hotel Management, from the Department of Economics and Management of Khazar University, visited the Military History Museum of Azerbaijan, supervised by Dr. Kamran Behbudov. The visit was dedicated to the 18th of October – Restoration of Independence Day of the Republic of Azerbaijan. The main purpose was to inform the students about the glorious history of our national army and the courage of our unforgettable heroes, and to instill in them the national and moral values. During the event, museum staff informed the students about the development of modern military industry, science and history of Azerbaijan, as well as the bloody Karabakh wars and many weapons and heavy artillery stored in the museum.

The event ended with a discussion.



# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏSİ AZƏRBAYCAN UNİVERSİTETİNDƏ MÜHAZİRƏ OXUDU

# KHAZAR UNIVERSITY STUDENT DELIVERED LECTURE AT AZERBAIJAN UNIVERSITY

Oktyabrın 18-də Xəzər Universitetinin 2-ci kurs magistratura tələbəsi Abubakari Yushawu Azərbaycan Universitetinin danışıq klubunda Maliyyə ixtisası üzrə təhsil alan II kurs bakalavr tələbələrinə "Rəqəmsal dünyada təhsil" mövzusunda mühazirə oxudu.

Qana Respublikasının vətəndaşı olan Abubakari Yushawu 2018-ci ildən bəri Azərbaycanda, Xəzər Universitetinin magistratura pilləsində təhsilin menecmenti ixtisası üzrə təhsil alır. Buna qədər onun Amerika və Şotlandiya kimi ölkələrdə də təhsil təcrübəsi toplamaq imkanı olmuşdur.

Azərbaycan Universitetinin müəllimi, eyni zamanda, Xəzər Universitetinin doktorantı Validə Kərimovanın təşkil etdiyi mühazirədə A.Yushawu əsasən müasir dövrdə təhsilin təşkili, bu istiqamətdə aparılan islahatlar, gənclərin təhsilə marağı və s. haqqında çox geniş məlumatlar verdi. Danışıq klubunda tələbələrdə daha çox maraq doğuran cəhət isə A.Yushawunun müqayisəli formada təhsilin təşkilini izah etməsi oldu. Belə ki, A.Yushawu Qana Respublikası və Azərbaycan Respublikasının təhsil nazirlikləri tərəfindən təklif edilən fənn proqramlarını, məktəbəqədər təhsili, kollec və universitet təhsilini müqayisəli formada izah etdi. Mühazirə zamanı o, bir sıra xarici ölkələrdə qazandığı təhsil təcrübələri haqqında da ətraflı məlumat verdi.

Danışıq klubunda iştirak edən Maliyyə ixtisasının 2-ci kurs bakalavr tələbələri, Xarici dillər kafedrasının rəhbəri dosent Samirə Məmmədova, həmin kafedranın müəllimləri - dosent Rəna Kərimova və doktorant Validə Kərimova Azərbaycan Universitetində tələbələrə yaradılmış təhsil imkanlarından qonaq məruzəçiyə söhbət açdılar.

İnteraktiv keçən mühazirənin sonunda A.Yushawu danışıq klubunda iştirak edən tələbə və müəllimlərin suallarını cavablandırdı və mühazirənin təşkilatçılarına üçün öz təşəkkürünü bildirdi.

On October 18, Abubakari Yushawu, a second-year master student from Khazar University, delivered a lecture for undergraduate students, majoring in Finance at the "Education in the Digital World" conversation club, Azerbaijan University.

Abubakari Yushawu, a citizen of the Republic of Ghana, has been studying at Khazar University since 2018, majoring in management in education. Prior to that, he had the opportunity to gain experience in countries like America and Scotland.

During the lecture, organized by Valida Karimova, Instructor at the University of Azerbaijan, and Khazar University PhD student (candidate), dedicated to "Education in the Digital World," A.Yushawu gave very extensive information, focusing primarily on the organization of education in the modern age, reforms being implemented in this area, youth interest in education, etc. The most interesting content for the students during the course of the conversation club was A.Yushawu's explanation of the organization of comparative education. Thus, A.Yushawu was able to attract the attention of the audience by comparing the subject programs offered by the Ministry of Education of the Republic of Ghana and the Ministry of Education of the Republic of Azerbaijan in comparative form of preschool education, college and university education.

The second-year undergraduate students majoring in Finance, Associate Professor Samira Mammadova, Head of Foreign Languages Department, and instructors of this Department - Associate Professor Rena Karimova and Valida Karimova Ph.D. (c.) talked about the educational opportunities available to students at Azerbaijan University, in order to provide information for the guest lecturer. During the course of the lecture, he also provided a detailed information about his educational experiences in several foreign countries.

At the end of the interactive lecture, A.Yushawu answered questions from students and teachers of the conversation club and thanked them for organizing the lecture.





# AZƏRBAYCANDA *CRISPR* TEXNOLOGİYASINA HƏSR OLUNMUŞ İLK TƏLİM KURSU





Oktyabrın 15-dən 18-dək Xəzər Universitetinin Həyat elmləri departamentinin və Azərbaycan Tibb Universitetinin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq, "CRISPR texnologiyası ilə genom redaktəsinin dizaynı və tətbiqi" mövzusunda elmi-praktiki təlim kursu keçirildi. Təlim Yaponiyanın Osaka Universitetinin və İranın Zəncan Tibb Universitetinin Xərçəngin Gen Terapiya Araşdırma Mərkəzinin alimi Dr. Saeed Koboli tərəfindən aparıldı. Məruzə Azərbaycanın müxtəlif elmi mərkəzlərində, o cümlədən, Xəzər Universiteti, Azərbaycan Baytarlıq Elmi Tədqiqat İnstitutu, AMEA Genetik Ehtiyatlar İnstitutu, Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi İnstitutu, Azərbaycan Tibb Universiteti, Bakı Dövlət Universiteti, AMEA Molekulyar Biologiya və Biotexnologiyalar İnstitutu, Bakı Mühəndislik Universiteti, Hind Klinikası, Nüvə Təbabət Mərkəzi və AZAL-da fəaliyyət göstərən alimlərin, mütəxəssislərin və tələbələrin iştirakı ilə böyük maraqla dinlənildi.

*(Ardı səh.18-də)*



## FIRST TRAINING COURSE ON *CRISPR* TECHNOLOGY IN AZERBAIJAN





On October 15-18, at the initiative of Khazar University's Department of Life Sciences and the Azerbaijan Medical University, for the first time in Azerbaijan a scientific-practical training dedicated to CRISPR Technology, entitled "The Design and Implementation of Genome Editing with CRISPR Technology" was held. The Training was delivered by Dr. Saeed Koboli, research fellow of the Osaka University of Japan and Cancer Gene Therapy Research Center of the Zanjan University of Medical Sciences, Iran. The lecture was met with a great interest among scientists and experts of Azerbaijan's scientific centers, including Khazar University, Azerbaijan Veterinary Scientific Research Institute, Institute of Genetic Resources of ANAS, Food Safety Agency of Azerbaijan Republic, Azerbaijan Medical University, Baku State University, Institute of Molecular Biology and Biotechnology of ANAS, Baku Engineering University, Indian Clinic, Nuclear Medicine Center and AZAL and also students who participated in the training.

*(To be continued page 18)*





Kurs genomun redaktə texnologiyalarının əsasları, CRISPR-Cas9 sisteminin quruluşu və mexanizmi, CRISPR-in tədqiqat laboratoriyalarında və tibb sahələrində istifadəsi, CRISPR-Cas-ın erkən diaqnostikada, müalicədə və sənaye biotexnologiyasında tətbiqi, CRISPR-Cas əsaslı genom mühəndisliyində klonlaşdırma, transfeksiya və redaktə, CRISPR-Cas komponentlərinin çatdırılması (Nano-çatdırılma) və CRISPR-in etik problemləri kimi maraqlı yeni elmi mövzuları əhatə edirdi. Eyni zamanda, iştirakçılara sgRNT-in (single guide RNA) CHOPCHOP proqramı vasitəsilə necə dizayn olunması praktiki olaraq ətraflı öyrədildi.

Təlim kursu ümumilikdə interaktiv keçərək hər günün sonunda iştirakçılar tərəfindən qiymətləndirildi.

The Course covered interesting new scientific topics such as Principles of Genome Editing Technology, CRISPR-Cas9 System Structure and Mechanism, CRISPR Application in Research Laboratories and Medical Fields, Application of CRISPR-Cas in Early Diagnostics, Treatment and Industrial Biotechnology, Cloning, Transfection and Editing in CRISPR-Cas Based Genome Engineering, CRISPR-Cas Components Delivery (Nano-delivery) and CRISPR Ethical Issues. At the same time, the participants were practically taught how to design sgRNT (single guide RNA) through the CHOPCHOP program.

The training course was generally interactive and assessed by participants at the end of each day.





## TÜRKİYƏLİ PSİXİATR TƏLƏBƏLƏRƏ MÜHAZİRƏ OXUDU

Oktyabrın 19-da Özəl Boylam Xəstəxanasının qurucusu, psixiatr professor Ertuğrul Köroğlu Xəzər Universiteti Psixologiya departamentinin magistr tələbələrinə klinik psixologiya dərsini tədris etdi. Tələbələr dərsdə çox fəal iştirak edərək, bilik və bacarıqlarını zənginləşdirdilər.

Professor Ertuğrul Köroğlu sosial şəbəkədə öz təəssüratlarını bölüşərək, tələbələrin aktiv olduğunu, çox faydalanacaqlarını və Xəzər Universiteti ilə əməkdaşlıqdan məmnun olduğunu qeyd etmişdir.

## TURKISH PSYCHIATRIST DELIVERED LECTURE TO STUDENTS

On October 19, Professor Ertugrul Köroğlu, the Founder of Özəl Boylam Hospital, taught clinical psychology to master students at Khazar University's Department of Psychology. Students actively participated in the class and enriched their knowledge and skills.

Professor Ertugrul Köroğlu shared his impressions on the social network, also emphasizing students' active participation, he expressed his appreciation of working with Khazar University.

# "QADIN SAĞLAMLIĞINI QORUYAQ" AKSİYASI



Oktyabrın 21-də Xəzər Universitetinin Tibb Mərkəzində Referans Tibbi Qrup və onun tərkibindəki Leyla Şıxlinskaya Qospitalı tərəfindən süd vəzisi xərçəngi ilə mübarizəyə həsr edilmiş "Qadın sağlamlığını qoruyaq" aksiyası keçirildi.

Universitetə dəvət edilmiş məsləhətçi mammoloq, tibb elmləri üzrə fəlsəfə doktoru, həkim Şəhla İbrahimova tərəfindən Universitetin qadın əməkdaşları müayinə edildi.

Universitetin əməkdaşları adından həkim Şəhla İbrahimovaya göstərdiyi diqqət və qayğıya görə dərin minnətdarlıq bildirir və ümidvarıq ki, gələcəkdə də bu əməkdaşlıq davam edəcək.

# "LET US PROTECT WOMAN'S HEALTH" ACTION

On October 21, an action dedicated to the fight against breast cancer entitled "Let's Protect Women's Health" was held at Khazar University's Medical Center, organized by the Referans Medical Group and its Subsidiary Leyla Shikhlinskaya Hospital.

The University's female staff has been examined by Doctor Shahla Ibrahimova, Doctor of Philosophy in Medicine, a consultant mammologist, invited to the University.

The University, on behalf of its staff, rendered thanks to Dr. Shahla Ibrahimova for the attention and care she provided and expressed hope that this cooperation will continue in the future.

# OMBUDSMANLIQLA BAĞLI TƏDBİR

Oktyabrın 22-də Xəzər Universiteti Psixologiya departamentinin koordinatoru və Psixoloji Xidmət Mərkəzinin rəhbəri psixoloq Mələk Kərimova Erasmus+ "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsi ilə bağlı Humanitar, təhsil və sosial elmlər fakültəsinin bir qrup birinci kurs tələbələri ilə görüşdü. Görüşün əsas məqsədi tələbələrə Ombudsman mərkəzinin funksiyaları haqqında ətraflı məlumat vermək, onların mərkəzlə və onun fəaliyyəti ilə bağlı suallarını cavablandırmaq idi. Ombudsman mərkəzinin tərəfsiz, qərəzsiz, məxfi bir məkan olduğu qeyd edildi.

Tələbələrə ehtiyac hiss edildiyi zaman Xəzər Universitetinin ombudsmanı Lamiyə Namazova ilə görüşə biləcəkləri bildirildi və mərkəzin yerləşdiyi yer haqqında onlara ətraflı məlumat verildi.

Qeyd edək ki, layihə başa çatsa da, mütəmadi olaraq tələbələrlə görüşlər təşkil edilir.

# EVENT CONCERNING OMBUDSMAN POSITION

On October 22, Melek Karimova, Coordinator of the Department of Psychology of Khazar University and Director of the Center for Psychological Service, organized a meeting with a group of first-year students from the School of Humanities, Education and Social Sciences, concerning the Erasmus + "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP). The main purpose of the meeting was to provide students with detailed information about the functions of the Ombudsman Center and answer their questions about the Center and its activities. It was noted that the Ombudsman Center is a neutral, impartial and confidential place.

Students were told they could meet with Khazar University Ombudsman Lamiya Namazova whenever necessary and they were informed about the location of the center.

Although the project is over, meetings are held regularly with students.

# UNİVERSİTETİN OMBUDSMANININ TƏLƏBƏLƏRLƏ NÖVBƏTİ GÖRÜŞÜ

# UNIVERSITY OMBUDSMAN HAD ANOTHER MEETING WITH STUDENTS

Oktyabrın 24-də Xəzər Universitetində Erasmus+ "Ombudsman vəzifəsi yaratmaqla tələbələrin təmsili təyin olunması" layihəsi çərçivəsində universitetin ombudsmanı Lamiyə Namazova tələbələrlə görüşərək, Ombudsman mərkəzinin funksiyaları haqqında ətraflı məlumat verdi və onları mərkəzlə tanış etdi.

Qeyd edək ki, layihənin məqsədlərindən biri də tələbələrin hüquq və vəzifələri ilə bağlı mütəmadi olaraq görüşlərin təşkil edilməsidir. Bu məqsədlə L. Namazova Ombudsman Mərkəzinin tərəfsiz, qərəzsiz, məxfi bir məkan olduğunu qeyd etdi və tələbələrin istənilən zaman müraciət edə biləcəklərini vurğuladı

Görüşlərin digər fakültə tələbələri ilə də davam etdirilməsi planlaşdırılır.

On October 24, Khazar University Ombudsman Lamia Namazova met with the students within the framework of Erasmus + "Advocacy Establishment for Students through Ombudsman Position" (AESOP) and provided students with an extensive information about the functions of the Ombudsman Center and also introduced the center.

It is worth mentioning that one of the goals of the project is to organize regular meetings with students concerning their rights and responsibilities. To this end, she noted that the Ombudsman Center is a neutral, impartial, confidential place and students can approach whenever necessary.

Meetings with other faculty students are also planned.





## İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNİN MÜƏLLİMİ SEMİNAR KEÇİRDİ

## ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT'S TEACHER HELD SEMINAR

Oktyabrın 24-də İngilis dili və Ədəbiyyatı departamentinin müəllimi Jordan Troisinin "Bütün növ ərizə formalarının cəlbedici şəkildə yazılmasının yolları" adlı seminar keçirdi.

Seminarda İnglis dili və ədəbiyyatı departamentin müdiri Dr.Bəhman Amani, Xəzər Universitetinin professor-müəllim heyəti və doktorant tələbələri iştirak edirdilər.

Seminar diskussiya şəklində davam etdi, Jordan Troisi sualları cavablandırdı.

On October 24, Jordan Troisi, Khazar University teacher at the Department of English and Literature, conducted a seminar entitled "Writing an Engaging Personal Statement for All Types of Applications".

The seminar was attended by Dr. Bahman Amani, Khazar University Head of the English Language and Literature Department, Khazar University Faculty and PhD students.

The workshop continued in the form of a discussion, Jordan Troisi answered questions.

## XƏZƏR UNİVERSİTETİNİN KAMERA ORKESTRİ AVSTRİYA SƏFİRLİYİNDƏ ÖLKƏNİN MİLLİ GÜNÜ MÜNASİBƏTİLƏ KEÇİRİLƏN RƏSMİ QƏBULDA KONSERT PROQRAMI TƏQDİM ETDİ

## KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA PERFORMED CONCERT AT THE OFFICIAL RECEPTION HELD AT AUSTRIAN EMBASSY ON THE NATIONAL DAY

Avstriyanın Azərbaycandakı səfirliyi oktyabrın 24-də bu ölkənin Milli Günü münasibətilə rəsmi qəbul təşkil edib. Dövlət və hökumət rəsmilərinin, millət vəkillərinin, diplomatik korpusun və ictimaiyyətin nümayəndələrinin qatıldığı tədbirdə Avstriyanın ölkəmizdəki səfiri Bernd Aleksandr Bayerl çıxış edərək, qeyd edilən Milli Günün tarixindən, ölkəsinin keçdiyi tarixi inkişaf yolundan söz açıb. Diplomat bildirib ki, Azərbaycanla Avstriya arasında əlaqələr yüksək səviyyədə inkişaf edib və bu, məmnunluq doğurur.

Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar naziri Ramin Quluzadə bayram münasibətilə Azərbaycan hökuməti və öz adından Avstriya xalqını təbrik edib.

Qəbulda Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadığovanın rəhbərliyi ilə universitetin Kamera orkestri konsert proqramı ilə çıxış etdi.

On 24th of October, the Austrian Embassy in Azerbaijan organized an official reception to mark its National Day. Austrian Ambassador Bernd Alexander Bayerl, delivering his opening statement at the event, which was attended by state and government officials, MPs, diplomatic corps and the public, talked about the history of the National Day and the historical development of his country. The diplomat said that relations between Azerbaijan and Austria are developing at a high level, which is very gratifying.

Ramin Guluzada, Minister of Transport, Communications and High Technologies congratulated Austrian people on behalf of the Government of Azerbaijan and on behalf of his own self.

At the reception, the University Chamber Orchestra performed a concert program, led by Zulfiyya Sadigova, Honorary Teacher and Head of the Department of Music and Fine Arts at Khazar University.

## "AZƏRBAYCAN ARXEOLOGİYASI" JURNALININ NÖVBƏTİ SAYI ÇAPDAN ÇIXIB




Xəzər Universitetinin nəşri olan "Azərbaycan arxeologiyası" jurnalının yeni sayı (Cild:22, Say: 2, 2019) çapdan çıxmışdır. Jurnalda Azərbaycan arxeoloqları ilə yanaşı, əcnəbi mütəxəssislərin də məqalələri dərc olunub.

Bu nömrədə Roza Arazova, Tarix Dostiyev və Bəhlul İbrahimlinin "Elmdə keçən ömür", Ülviyyə Heydərovanın "Azərbaycanın Ağstafa rayonu ərazisindəki neolit abidələrinin tədqiqi", Toğrul Xəlilovun "Naxçıvanın Tunc dövrü dulusçuluq sənəti", Anar Ağalarzadənin "Azərbaycanın cənub-şərq bölgəsinin son tunc-ilk dəmir dövrü kurqanları və daş qutu qəbirləri", Laçın Mustafayevin "Azərbaycanın keramika istehsalında izlənilən qarşılıqlı mədəni təsirlər (e.ə. I minilliyin ortaları)", Murtazəli Hacıyev, Artur Taymazov, Arsen Budayçiyev, Abdulla Abdullayev və Əskərxan Əbiyevin "Dərbənddə (Bab əl-Əbvabda) erkən müsəlman nekropolu", Tarix Dostiyevin "Orta əsr Şəmkir şəhər yerinin sferokonus qabları", Günay Bayramovanın "Keramika və xalça üzərindəki bəzi naxışların semantikasına dair" və Afaq Quluzadənin "Bədr Həvva Bikə xatunun epitafiyası" adlı məqalələri verilmişdir.

Qənirə Pirquliyevanın "А. В. Пачкалов. Золотая Орда по данным нумизматических источников" (М.,"КноРус") kitabına rəyi də oxuculara jurnalın bu sayında təqdim edilmişdir.

## SUBSEQUENT ISSUE OF AZERBAIJAN ARCHEOLOGY JOURNAL PUBLISHED

A new issue of the Azerbaijan Archeology Journal, published by Khazar University (Volume 22, Issue 2, 2019), has been released. Along with the articles by Azerbaijani archaeologists, the Journal also publishes articles by foreign experts.

This issue includes the following articles - Rosa Arazova, Tarih Dostiev and Bahlul Ibrahimli's "Life Lived in Science"; Ulviya Heydarova's "Study of Neolithic settlements on the territory of Akstafa district of Azerbaijan"; Togrul Khalilov's "Pottery of the bronze age in Nakhchivan"; Anar Aghalarzade's "Late Bronze and Iron Age Stone Box and Kurgan Graves of South-east Region of Azerbaijan"; Lachin Mustafayev's, "Intercultural influences observed in ceramics production in Azerbaijan (middle of the 1st millennium BC)"; Murtazali Hajiyev, Artur Taymazov, Arsen Budaychiev, Abdulla Abdullaev and Askerkhan Abiyev's "Early Muslim Cemetery in Derbent (Bab al-Abwab)"; Tarih Dostiev's "Spheroconic vessels of the medieval town of Shamkir"; Gunay Bayramova's "Concerning the semantics of patterns on ceramics and carpets" and Afag Guluzade's "The epitaph of Badr ul- Havva Bika khatun".

A review of the Book by Ganira Pirguliyeva on "A. V. Pachkalov. Golden Horde according to numismatic sources (M., "KnoRus") is also available to readers in this issue of the Journal.

# PROFESSOR HAMLET İSAXANLI AMEA RİYAZİYYAT VƏ MEXANİKA İNSTİTUTUNUN 60 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ KONFRANSDA

# PROFESSOR HAMLET ISAKHANLI AT INTERNATIONAL CONFERENCE DEDICATED TO 60th ANNIVERSARY OF THE INSTITUTE OF MATHEMATICS AND MECHANICS OF ANAS

Oktyabrın 23-25-də AMEA İnformasiya Texnologiyaları İnstitutunun akt zalında Riyaziyyat və Mexanika İnstitutunun (RMİ) 60 illik yubileyinə həsr olunmuş "Riyaziyyat və mexanikanın müasir problemləri" adlı beynəlxalq konfrans keçirilib. Tədbirdə Azərbaycanın elmi ictimaiyyəti, ABŞ, Türkiyə, Rusiya, İran, Meksika və İsraildən gəlmiş alimlər iştirak edirdilər.

Konfransın ilk günündə AMEA-nın vitse-prezidenti, akademik Dilqəm Tağıyev tədbiri açaraq, institut əməkdaşlarını yubiley münasibətilə təbrik edib, konfransın işinə uğurlar arzulayıb. RMİ-nin direktoru, AMEA-nın müxbir üzvü Misir Mərdanov çıxış edərək institutun tarixi, fəaliyyət istiqamətləri və əldə etdiyi nailiyyətlər haqqında məlumat verib. Sonra yerli alimlər və xarici mütəxəssislər çıxış edərək təbriklərini çatdırmış, hədiyyələrini təqdim ediblər. Konfransın Beynəlxalq Təşkilat Komitəsinin üzvü, Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı tədbirdə çıxış etdi. Professor Hamlet İsaxanlı çıxışını Evkliddən başlayan riyaziyyatın qədim dövrlər, orta əsrlər və 19-20-ci əsrlərdə olan əsas inkişaf istiqamətləri, riyaziyyatın digər təbiət elmlərinin inkişafındakı rolu haqqında maraqlı məlumat və mülahizələrlə başladı. Sonra o, başlanğıcını 1925-1930-cu illərdən götürən Azərbaycan riyaziyyat məktəbi, onun inkişaf istiqamətləri, bu məktəbin qurucuları və aparıcı nümayəndələri, onların yaratdıqları məktəblər, o cümlədən, ölkəmizdə riyaziyyatın bir elm kimi inkişafının 1959-cu ildə Riyaziyyat və Mexanika İnstitutunun yaranması ilə başlayan institusional dövrü barədə geniş və maraqlı faktlarla zəngin məlumat verdi. Professor Hamlet İsaxanlı Riyaziyyat və Mexanika İnstitutunun onun həyatında oynadığı xüsusi rol haqqında danışarkən, Moskva Dövlət Universitetinin aspiranturasına və daha sonralar SSRİ Elmlər Akademiyasının Steklov adına Riyaziyyat İnstitutunun doktoranturasına məhs bu institut tərəfindən göndərildiyini, özünün isə təqribən 20 il bu institutda çalışdığını xatırlatdı. O, Xəzər Universitetinin Riyaziyyat departamentinin müdiri Əli Hüseynlinin də halhazırda bu institutda çalışdığını yada salaraq, bu mənada Xəzər Universitetinin Riyaziyyat departamentinin Riyaziyyat və Mexanika İnstitunun bir qolu sayıldığını vurğuladı və göstərilən dəstəyə görə öz təşəkkürünü bildirdi.

Sonra professor Hamlet İsaxanlı instituta Azərbaycan xalçaçılıq məktəbinin ən məşhur çeşnilərindən biri ilə toxunmuş, üzərində gümüşü lövhədə təbrik sözləri həkk olunmuş Şirvan xalçası və Xəzər Universitetinin müəllimi, rəssam Afaq Kərimovanın bədii üslubda işlədiyi qrafik kollaj hədiyyə etdi. Kollajda Azərbaycanın müasir riyaziyyat məktəbinin banilərindən başlayaraq hazırkı dövrə qədər görkəmli alimlərin fotoları kino lenti kimi yerləşdirilmiş, "Zəka, fantaziya və zəhmətin qovuşduğu ocaq" cümləsi rəsm edilərək, "Xəzər Universiteti, Hamlet İsaxanlı" imzası ilə tamamlanmışdır.

Qeyd edək ki, konfransda Xəzər Universitetinin Riyaziyyat departamentinin əməkdaşları da məruzələrlə çıxış etmişlər.

On October 23-25, International Conference on "Modern Problems of Mathematics and Mechanics" dedicated to the 60th anniversary of the Institute of Mathematics and Mechanics (IMM) was held at the assembly hall of the Institute of Information Technology of ANAS. The event was attended by scholars from the Scientific Community of Azerbaijan, US, Turkey, Russia, Iran, Mexico and Israel.

On the first day of the Conference, academician Dilgam Tagiyev, the Vice-president of ANAS, opened the event and congratulated the Institute staff on the anniversary and wished success to the Conference. Misir Mardanov, Director of IMM, correspondent member of ANAS, while delivering speech, provided information on the history, directions of activity and achievements of the Institute. Later on, local scientists and foreign experts made speeches and presented their gifts. Professor Hamlet Isakhanli, member of the International Organizing Committee of the Conference, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, delivered speech at the event. Professor Hamlet Isakhanli began his speech with interesting information and considerations about mathematics, its ancient period, beginning with Euclid, the main development directions of the mathematics during the Middle Ages and the 19th and 20th centuries, the role of mathematics in the development of other natural sciences. Then he provided extensive and interesting facts about the Azerbaijani mathematics school, which started its activity in 1925-1930, the directions of its development, the founders and leading representatives of this school, the schools they established, as well as the development of mathematics as a science in our country, the institutional cycle, which commenced with the establishment of the Institute of Mathematics and Mechanics in 1959. Professor Hamlet Isakhanli, while talking about the special role that the Institute of Mathematics and Mechanics played in his life, he recalled that he had been sent to postgraduate studies at Moscow State University and later to the doctoral program at the Steklov Institute of Mathematics at the USSR Academy of Sciences, where he worked for nearly 20 years. By reminding that Ali Huseynli, the Head of the Mathematics Department at Khazar University, is also currently working at the Institute, he emphasized that in this sense, Khazar University's Mathematics Department is an arm of the Institute of Mathematics and Mechanics and thuswise expressed his gratitude for the support.

Following his speech, Professor Hamlet Isakhanli presented the Institute the Shirvan carpet, embroidered with congratulation words on the silver board, made by one of the most famous carpet weavers of the Azerbaijani carpet school, and a graphic collage in artistic style by the artist Afag Kerimova, teacher of Khazar University. The collage as in filmstrip features photos of prominent scholars from the founders of the modern Azerbaijani mathematics school up to the present time, with the phrase "Hotbed where intelligence, fantasy and hard work united" and completed with the signature of "Khazar University, Hamlet Isakhanli".

It is worth mentioning that the employees of the Khazar University Department of Mathematics also delivered speeches at the Conference.


AZƏRBAYCAN MİLLİ ELMLƏR AKADEMİYASI
İNFORMASİYA TEXNOLOGİYALARI İNSTİTUTU






AZƏRBAYCA





# VURĞUN ƏYYUBUN DOĞUM GÜNÜ MÜNASİBƏTİLƏ ƏDƏBİ-BƏDİİ TƏDBİR





Oktybrın 25-də Xəzər Universitetinin Fikrət Əmirov Konfrans-Konsert Mərkəzində universitetin Dillər və ədəbiyyatlar departamentinin müdiri, Tələbə Qəbulu üzrə Dövlət Komissiyasının ilk sədri olmuş ədəbiyyatşünas alim, ictimai - siyasi xadim Vurğun Əyyubun doğum günü münasibətilə ədəbi-bədii tədbir keçirildi. Tədbirdə universitetin rəhbərliyi, əməkdaşları və tələbələr, elmi və ədəbi ictimaiyyətin nümayəndələri, Vurğun Əyyubun ailə üzvləri iştirak edirdilər.

Nəsiminin “Ayrılır” rədifli qəzəli ilə başlanan zəngin kompozisiyalı tədbirdə Vurğun Əyyubun da şeirləri daxil olmaqla tələbələrin ifasında şairlərin şeirləri səsləndi, musiqi nömrələri təqdim olundu. Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim Zülfiyyə Sadıqovanın pianoda müşayiəti ilə universitetin tələbəsi Şəmsiyyə Cəfərli “Ayrılıq” mahnısını, Aşıq Şəhriyar sazda aşıq havalarını ifa etdilər. Tədbir boyu Vurğun Əyyubun Xəzər Universitetindəki fəaliyyətini əks etdirən slayd-şoular nümayiş olundu.

*(Ardı səh.28-də)*





# LITERARY AND ARTISTIC EVENT HELD TO MARK THE BIRTHDAY OF VURGUN AYYUB



On October 25, a literary and artistic event was held at Khazar University Fikrat Amirov Conference-Concert Center, to mark the birthday of Vurgun Ayyub, the former Head of the University's Department of Languages and Literature, and the first Chairman of the State Student Admission Commission, literary scholar, social and political figure. The event was attended by the University Administration, staff and students, representatives of the scientific and literary community, and members of the family of Vurgun Ayyub.

At the rich compositional event, which started by the humorous Nasimi's "Ayrilir", students recited poems, including poems by Vurgun Ayyub, and musical numbers were performed. The student of the University, Shamsiyya Jafarli, accompanied by the honored teacher Zulfiyya Sadigova, the Head of the Department of Music and Fine Art at Khazar University, sang the song "Ayrılıq" (Separation) and Ashig Shahriyar performed love poems playing accompanying with saz. During the event, slides were shown to highlight the activities of Vurgun Ayyub at Khazar University.



*(To be continued page 28)*





Tədbirdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova çıxış edərək, Vurğun Əyyubu səriştəli departament müdiri, tələbələrini özünə övlad bilən qayğıkeş müəllim kimi səciyyələndirdi.

Tədbirdə millət vəkili Aqil Abbas, professorlar Qulu Məhərrəmli, Bədirxan Əhmədov, Əli Şamil, şair Elnaz Eyvaz, Türkiyə səfirliyinin mətbuat katibi Hüseyin Altınalın, Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı Elza Səmədli çıxış edərək, Vurğun Əyyubla bağlı xatirələrini bölüşdülər.

Tədbir Vurğun Əyyubun xatirəsinə dərin ehtiramla başa çatdı.

Speaking at the event, Rector of Khazar University, Associate Professor Irada Khalilova, described Vurgun Ayyub as the experienced head of a department and a caring teacher who regarded students as his children.

During the event, while delivering their speches, MP Agil Abbas, Professors Gulu Maharramli, Badirkhan Ahmedov, Ali Shamil, poet Elnaz Eyvaz, Turkish embassy spokesperson Huseyin Altınalin, Associate Professor Elza Samedova, Dean of Khazar University School of Humanities, Education and Social Sciences, shared their memories about Vurgun Ayyub.

The event ended with a tribute to Ayyub's memory.







Vurğun Əyyub




Əyyub
fəlsəfə doktoru.






Vurğun Əyyub

# TƏBİƏT ELMLƏRİ VƏ MÜHƏNDİSLİK FAKÜLTƏSİNİN MƏZUNLARI DÜNYANIN MÜXTƏLİF ÖLKƏLƏRİNDƏ

# ALUMNI OF THE SCHOOL OF SCIENCES AND ENGINEERING ARE IN DIFFERENT COUNTRIES AROUND THE WORLD

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin 2019-cu ilin məzunları dünyanın qabaqcıl ölkələrində –Almaniya, Polşa, Belçika, Macarıstan, İtaliya, Estoniya, Türkiyə, Birləşmiş Ərəb Əmirliklərində, Səudiyyə Ərəbistanında magistr təhsili almaq hüququ qazanmışlar:

Alumni of 2019 class of the School of Sciences and Engineering from Khazar University gained the admission to Universities to obtain master's degrees in the leading countries of the world - Germany, Poland, Belgium, Hungary, Italy, Estonia, Turkey, the United Arab Emirates and Saudi Arabia:



**Zeynəb Mehdiyeva**
Ölkə: Almaniya
Universitet: Münster Tətbiqi Elmlər Universiteti
İxtisas: Kimya mühəndisliyi
Tam təqaüd

**Zeynab Mehdiyeva**
Country: Germany
University: Fachhochschule Münster University of Applied Science
Major: Chemical Engineering



**Mürsəl Zeynalov**
Ölkə: Birləşmiş Ərəb Əmirlikləri
Universitet: Xəlifə Universiteti
İxtisas: Neft-qaz mühəndisliyi
Tam təqaüd

**Mursal Zeynalov**
Country: United Arab Emirates
University: Khalifa University
Major: Petroleum Engineering
Full Scholarship



**Ruslan Babayev**
Ölkə: İtaliya
Universitet: Milan Politexnik Universiteti
İxtisas: İnşaat mühəndisliyi
Tam təqaüd

**Ruslan Babayev**
Country: Italy
University: Politecnico di Milano
Major: Civil Engineering
Full Scholarship



**Elşad Aslanov**
Ölkə: Səudiyyə Ərəbistanı
Universitet: Kral Fəhd Neft və Mineraller Universiteti
İxtisas: Neft-qaz mühəndisliyi
Tam təqaüd

**Elshad Aslanov**
Country: Saudi Arabia
University: King Fahd University of Petroleum and Minerals
Major: Petroleum Engineering
Full Scholarship



**Nicat Qasımlı**
Ölkə: Səudiyyə Ərəbistanı
Universitet: Kral Fəhd Neft və Mineraller Universiteti
İxtisas: Neft-qaz mühəndisliyi
Tam təqaüd

**Nijat Gasimli**
Country: Saudi Arabia
University: King Fahd University of Petroleum and Minerals
Major: Petroleum Engineering
Full Scholarship



**Yevgeniy Samarkin**
Ölkə: Səudiyyə Ərəbistanı
Universitet: Kral Fəhd Neft və Mineraller Universiteti
İxtisas: Neft-qaz mühəndisliyi
Tam təqaüd

**Yevgeniy Samarkin**
Country: Saudi Arabia
University: King Fahd University of Petroleum and Minerals
Major: Petroleum Engineering
Full Scholarship



**Ziya Mehdiyev**
Ölkə: Macarıstan
Universitet: Miskolc Universiteti
İxtisas: Mexanika mühəndisliyi
Tam təqaüd.

**Ziya Mehdiyev**
Country: Hungary
University: University of Miskolc
Major: Mechanical Engineering
Full Scholarship



**Püstə Calalova**
Ölkə: Macarıstan
Universitet: Miskolc Universiteti
İxtisas: Mexanika mühəndisliyi
Tam təqaüd

**Pusta Jalalova**
Country: Hungary
University: University of Miskolc
Major: Mechanical Engineering
Full Scholarship



**Nailə Şərifova**
Ölkə: Macarıstan
Universitet: Eötvös Loránd Universiteti
İxtisas: Kompüter elmləri
Tam təqaüd

**Naila Sharifova**
Country: Hungary
University: Eötvös Loránd University
Major: Computer Science
Full Scholarship



**Cavid Mahmudov**
Ölkə: Macarıstan
Universitet: Budapeşt Texnologiya və İqtisad Universiteti
İxtisas: Kompüter elmləri
Tam təqaüd

**Javid Mahmudov**
Country: Hungary
University: Budapest University of Technology and Economics
Major: Computer Science
Full Scholarship



**Anar Sultani**
Ölkə: Macarıstan
Universitet: Eötvös Lorand Universiteti
İxtisas: Kompüter elmləri
Tam təqaüd

**Anar Sultani**
Country: Hungary
University: Eötvös Lorand University
Major: Computer Science
Full Scholarship



**Ayşən Yarıyeva**
Ölkə: Macarıstan
Universitet: Eötvös Lorand Universiteti
İxtisas: Kompüter elmləri
Tam təqaüd

**Ayshan Yariyeva**
Country: Hungary
University: Eötvös Lorand University
Major: Computer Science
Full Scholarship



**Artyom Kuznetsov**
Ölkə: Belçika
Universitet: Brussel Azad Universiteti
İxtisas: Kompüter elmləri

**Artyom Kuznetsov**
Country: Belgium
University: Vrije Universiteit Brussel
Major: Computer Science



**Aysel Abdullayeva**
Ölkə: Belçika
Universitet: Brussel Azad Universiteti
İxtisas: Kompüter elmləri

**Aysel Abdullayeva**
Country: Belgium
University: Vrije Universiteit Brussel
Major: Computer Science



**Aysel Həsənova**
Ölkə: İtaliya
Universitet: Turin Politexnik Universiteti
İxtisas: Ərazi, şəhər, ətraf mühit və landşaft planlaşdırması
Tam təqaüd

**Aysel Hasanova**
Country: Italy
University: Polytechnic University of Turin
Major: Territorial, urban, environmental and landscape planning
Full Scholarship



**Sanar Qasımov**
Ölkə: İtaliya
Universitet: Turin Politexnik Universiteti
İxtisas: Ağıllı Cəmiyyətlər üçün İKT
Tam təqaüd

**Sanar Gasimov**
Country: Italy
University: Polytechnic University of Turin
Major: ICT for Smart Societies
Full Scholarship



**Orxan Əliyev**
Ölkə: İtaliya
Universitet: Turin Politexnik Universiteti
İxtisas: Ağıllı Cəmiyyətlər üçün İKT

**Orkhan Aliyev**
Country: Italy
University: Polytechnic University of Turin
Major: ICT for Smart Societies



**Loğman Kərimli**
Ölkə: Türkiyə
Universitet: İstanbul Texniki Universiteti
İxtisas: Dəniz mühəndisliyi

**Loghman Karimli**
Country: Turkey
University: Istanbul Technical University
Major: Offshore engineering



**Rövşən Əkbərov**
Ölkə: Macarıstan
Universitet: Budapeşt Texnologiya və İqtisad Universiteti
İxtisas: Kompüter elmləri
Tam təqaüd

**Rovshan Akbarov**
Country: Hungary
University: Budapest University of Technology and Economics
Major: Computer Science
Full Scholarship



**Aliş İsmayılzadə.**
Ölkə: Polşa
Universitet: Dobrova Universiteti
İxtisas: Layihə meneceri
Tam təqaüd

**Alish Ismayilzada**
Country: Poland
University: University of Dobrova
Major: Project manager
Full Scholarship




## XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ GÜRCÜSTAN HƏRB TARİXİ CƏMİYYƏTİNİN FƏXRİ ÜZVÜ SEÇİLDİ

## KHAZAR UNIVERSITY TEACHER BEEN ELECTED HONORARY MEMBER OF THE GEORGIAN MILITARY HISTORY SOCIETY

Noyabrın 13-dəXəzər Universitetinin Tarix və arxeologiya departamentinin müəllimi t.ü.f.d., dosent Səbuhi Əhmədov Gürcüstan Hərb Tarixi Cəmiyyətinin fəxri üzvü seçildi. Cəmiyyətin sədri Mamuka Gogitidze və sədr müavini Giorgi Bejitaşvili tərəfindən təqdim edilən üzvlük diplomunda S.Əhmədovun Azərbaycan-Gürcüstan dostluq münasibətlərinin möhkəmləndirilməsində göstərdiyi səylər xüsusi qeyd olunmuşdur.

Azərbaycanın hərb tarixi və heraldikasına həsr olunmuş bir sıra nəşrlərin müəllifi olan S.Əhmədov, həmçinin, XIX-XX əsrin əvvəllərində Azərbaycan milli hərbi hissələrinin yaradılmasında azərbaycanlılarla bərabər fəaliyyət göstərmiş digər millətlərin nümayəndələrinin həyat və fəaliyyətinin öyrənilməsi, eləcə də, Qafqaz silahlarının tədqiqinə həsr edilən yazıların müəllifidir.

On November 13, Associate Professor Sabuhi Ahmadov, teacher at the Department of History and Archeology, Khazar University, Doctor of Historical Sciences, was elected an honorary member of the Georgian Military History Society. In the membership diploma presented by Mamuka Gogitidze, the Chairman of the Society, and Giorgi Bejitashvili, Deputy Chairman, S. Akhmedov's efforts in strengthening the Azerbaijani-Georgian friendly relations were particularly highlighted.

S. Akhmedov, being an author of a number of publications dedicated to the military history and development of Azerbaijan, is also the author of articles devoted to the study of the life and activities of representatives of other nations who worked with Azerbaijanians in the formation of the national military units of Azerbaijan in the early 19th and 20th centuries.

"XƏZƏR XƏBƏR"İN AMEA NİZAMİ ADINA ƏDƏBİYYAT İNSTİTUTUNDA BÜROSU




# BOLQARISTANDA İMADƏDDİN NƏSİMİNİN "MƏNİM MÜQƏDDƏS MƏBƏDİM" KİTABI ÇAP OLUNUB

Bolqarıstanda İmadəddin Nəsiminin "Mənim müqəddəs məbədim" kitabı nəşr edilib. Kitab böyük Azərbaycan şairi İmadəddin Nəsiminin anadan olmasının 650 illiyi münasibəti ilə Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin Sərəncamına uyğun olaraq çap olunub.

Kitabın ön sözünün müəllifi AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəylidir. "Cahana sığmayan Azərbaycan şairi" adlı ön sözdə Nəsimi yaradıcılığı Bolqarıstan oxucusuna təqdim edilib.

Kitab Azərbaycan Milli Elmlər Akademiyası və Azərbaycan Respublikasının Bolqarıstan Respublikasındakı səfirliyinin birgə nəşridir. Nəsiminin kitabda yer alan əsərlərini bolqar dilinə Boyan Anqelov, İvan Eseniski, Nadya Popova çevirib.

Bolqarıstanın "Blqarski pisatel" nəşriyyatında işıq üzü görən kitabın redaktoru şair Dimitr Xristov, qrafik dizayneri isə Emiliya Kazakovadır.

Qeyd edək ki, Sofiyada çap olunmuş İmadəddin Nəsiminin "Mənim müqəddəs məbədim" kitabının Bolqarıstan Elmlər Akademiyasında geniş təqdimatı və müzakirəsi keçirilib.

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu, İctimaiyyətlə əlaqələr şöbəsi**



# XARİCİ YAZARLARLA GÖRÜŞ

Azərbaycan Milli Elmlər Akademiyası Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunda Oman Mədəniyyət Assosiyasinin prezidenti Dr, Aişə Əd Dərməki, Serbiya Yazıçılar Birliyinin fəxri sədri Radomir Andriç, Moldova Pen Təşkilatının sədri Leo Butnaru və Slavakiya şairi Valeri Kupka ilə görüş keçirilib.

Tədbiri AMEA-nın vitse-prezidenti, Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutunun direktoru, akademik İsa Həbibbəyli açaraq qonaqları salamlayıb. Akademik bildirib ki, Avrasiya yazıçılarının "LiFFt-2019" IV Avrasiya ədəbi festivallar festivalı çox böyük əhəmiyyətə malikdir. Bu, həqiqətən böyük ədəbiyyat hadisəsidir, bütün tərəflər üçün əhəmiyyətlidir. Azərbaycan üçün də ev sahibi kimi əhəmiyyətli və məsuliyyətlidir. Bundan sonra da ədəbiyyatın dünyada inkişafına böyük təkan verən hadisə olacaq. Mən açılış tədbirində iştirak etdim, çox böyük təəsüratlarla ayrıldım.

İnstitutun direktoru onu da əlavə edib ki, adından göründüyü kimi bizim İnstitut ədəbiyyatı öyrənir. İnstitutumuzun 86 yaşı var, əsas istiqamət Azərbaycan ədəbiyyatını öyrənməkdir. Eyni zamanda Ədəbi tənqid və Ədəbiyyat nəzəriyyəsi şöbələri də vardır. Bunlardan başqa Dünya ədəbiyyatı şöbəsi var ki, həmin şöbədə daha çox Qərb, əsasən Avropa ədəbiyyatı öyrənilir. Bizim eyni zamanda Asiya və Türk xalqları ədəbiyyatını öyrənən şöbələrimiz də var. Bu ölkələrin bəzilərinə aid mütəxəssislər vardır, bir çoxu isə yeni formalaşır. Oman ədəbiyyatını son illərdə Bədii Tərcümə Mərkəzi ilə birgə öyrənirik. Artıq nəticə var, Oman ədəbiyyatının nümayəndələri Azərbaycan dilinə tərcümə olunub, ilk dəfə antologiya çap edilib. Bu iş davam edir, oradakı həmkarlarımızla əlaqə qurmuşuq. Sizin gəlməyiniz də bu əlaqələrin inkişafına kömək edəcək. Avropa Ədəbiyyatı haqqında onu əlavə edə bilərəm ki, sovet dövründən fərqli olaraq indi Moldova ədəbiyyatı Rumıniya ədəbiyyatı ilə bir yerdə öyrənilir.

Sonra "Dünya Ədəbiyyatı" dərgisinin baş redaktoru, Bədii Tərcümə və Ədəbi Əlaqələr Mərkəzinin sədri Səlim Babullaoğlu bu görüşün təşkili üçün akademik İsa Həbibbəyliyə təşəkkür edərək qonaqların fəaliyyəti haqqında məlumat verdi. O qeyd edib ki, Dr, Aişə Əd Dərməki Oman Mədəniyyət Assosiyasının prezidentidir. Həmin təşkilat Oman Sultanının diqqət mərkəzində olan bir qurumdur. Biz ilk dəfə olaraq əlliyə yaxın omanlı müəllifi əhatə edən "Oman ədəbiyyatı" xüsusi sayının nəşrinə nail olmuşuq. İmamverdi Həmidovun iştirakı ilə Oman haqqında məqalələr kitabını çap etmişik. Gələcəkdə azərbaycanlı alimlərin Omanda, eləcə də onların burada məqalələrini nəşr etməyi düşünürük.

Radomir Andriç isə şairdir, uzun illər Serbiya Yazıçılar Birliyinin sədri olub, indi isə fəxri sədrdir. Azərbaycan ədəbiyyatının yaxın dostudur. Yazıçıların Beynəlxalq Belqrad görüşünün təşkilatçısıdır. 50 ildən artıq tarixi olan Belqrad görüşlərində on ildən çoxdur ki, Azərbaycandan da iştirakçılar qatılır. Leo Butnaru görkəmli rumın və moldova şairidir. "Nobel" mükafatına Rumıniya Yazıçılar İttifaqı tərəfindən təqdim olunub. Rumıniya Pen Təşkilatının Kişinyov filialının sədridir. Valeri Kupka isə tanınmış Slovakiya şairidir.

Daha sonra Dünya ədəbiyyatı və komparativistika şöbəsinin müdiri Gülər Abdullabəyova, qonaqlar Dr, Aişə Əd Dərməki, Radomir Andriç, Leo Butnaru, Valeri Kupka çıxış edərək belə bir görüşün təşkili üçün təşəkkürlərini bildiriblər.

**Nizami Gəncəvi adına Ədəbiyyat İnstitutu,**
**İctimaiyyətlə əlaqələr şöbəsi**





# MAGİSTRANTLAR DİSSERTASİYA MÜDAFİƏ ETDİLƏR

# MASTERS DEFENDED THEIR THESES

Oktyabrın 25-də Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin magistr tələbələri - Elvina Əbilzadə ("Siyasi nitqdə inversiyanın praqmatik funksiyası"), Validə Salmanova ("Jerome David Salinger`in "Çovdarlıqda uçurumdan qoruyan" romanında yeniyetmələrin dilinin xüsusiyyətləri və ingilis dilindən Azərbaycan dilinə müvafiq tərcümə problemi"), Könül Xəlilova ("Con Steynbek`in "Qəzəb salxımı" romanının tərcüməsində itki və bərpalar") və Aidə Əsgərova ("Teodor Drayzerin "Kerri bacı" əsərində leksik-stilistik vasitələr və onların Azərbaycan dili tərcüməsində təhlili") dissertasiya müdafiə etdilər.

Müdafidə Şurası İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr.Bəhman Amani (sədr), departamentin müəllimləri İradə Səmədova, İlham Tağıyev və İrina Orucova, departamentin Tədqiqat işləri üzrə koordinatoru Milana Abbasova, Azərbaycan Dillər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasının professoru Azad Məmmədov, Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədovdan ibarət idi.

Mövzular ətrafında müzakirə keçirildikdən sonra işlər müsbət qiymətləndirildi.

On October 25, master students of Khazar University Department of English Language and Literature defended their dissertations on the following topics: Elvina Abilzade, "Pragmatic Function of Inversion in Political Discourse", Valida Salmanova "Peculiarities of the teenagers` language in the novel "The Catcher in the Rye" by J.D. Salinger and their adequate translation problems from English to Azeri", Konul Xalilova "Loss and compensation in translation of the novel "Grapes of Wrath" by John Steinbeck'"', Aida Asgarova, "The lexical stylistic devices in the novel "Sister Carrie" by Theodore Dreiser and the differences of their translation from English to Azeri".

The defense counsil consisted of Dr. Bahman Amani, the Head of the English Language and Literature Department, Department's teachers - Irada Samadova, Ilham Taghiyev and Irina Orujova, Department's Research Coordinator - Milana Abbasova, Azada Mammedov, Professor of English Language and Literature Department at Azerbaijan University of Languages, and Jabir Mammadli, Coordinator of the Division of Graduate Studies and Research.

After the presentation of the topics and discussions, the works were evaluated positively.










# TƏLƏBƏLƏRİN CƏLB OLUNMASI ÜZRƏ İŞÇİ QRUPUN RAYONLARA SƏFƏRİ

# WORKING GROUP ON ATTRACTING STUDENTS VISITED REGIONS

Oktyabrın 25-26-da Xəzər Universitetinin Tələbələrin cəlb olunması üzrə işçi qrupun rəhbəri professor Fuat Rəsulov Bərdə və Ağcəbədi şəhərlərinə səfər etdi.

Səfərin məqsədi 2020-ci ildə universitetə tələbələrin cəlb olunması üzrə işləri təkmilləşdirmək, universitetin "tərəfdaşları şəbəkəsi"nin əhatə dairəsini genişləndirmək, regionlarda fəaliyyət göstərən hazırlıq kurslarının rəhbərləri ilə əlaqə yaratmaq, onları yeni tələbələrin cəlb olunması prosesində tərəfdaş və yardımçı etməkdir. Səfər zamanı Ağcəbədinin "Yeni abituriyent" Hazırlıq Kursları və Bərdənin Hazırlıq Mərkəzi ilə əlaqələr quruldu, orada universitetə məxsus reklam sərgisi yaradıldı.

Eyni zamanda, abituriyentlər və müəllimlərlə görüş keçirildi, Xəzər Universitetinə aid videoçarx nümayiş edildi və onların sualları cavablandırıldı.

On October 25-26, Professor Fuad Rasulov, Head of the Working Group on Attracting Students to Khazar University visited Barda and Agjabedi cities.

The purpose of the visit is to improve the activities on the recruitment of students to the university by 2020, to expand the university's "network of partners", to establish a contact with the leaders of preparatory courses operating in the regions, to partner and assist them in the process of attracting new students. During the visit, contacts were established with Agjabedi "Yeni abituriyent" Preparatory Courses and the Barda Training Center, wherein a university-owned advertising exhibition was established.

At the same time, a meeting with applicants and teachers was held, a video of Khazar University was presented, and their questions were answered.



# COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN TƏLƏBƏLƏRİ ALTIAĞACDA

Oktyabrın 27-də Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin təşkilatçılığı ilə biocoğrafiya və hidrologiya fənlərindən Altıağac Milli Parkına ekskursiya təşkil olundu. Milli Park Böyük Qafqazın cənub-şərqində, Xızı və Siyəzən rayonlarının inzibati ərazisində yerləşir. Çöl tədqiqatı zamanı tələbələr əvvəlcə biocoğrafiya fənninin mövzusuna uyğun olaraq, II Marşrut ilə hərəkət etdilər. Burada Qafqaz palıdı, Qafqaz vələsi, Şərq fısdığı, adi göyrüş, itiyarpaqlı ağcaqayın ağac növlərindən və yemşan, böyürtkən, əzgil, qaratikan, itburnu və s. kimi kol bitkilərindən ibarət meşə sahələrini gəzərək, onlar haqqında və təbii landşaftların qorunub saxlanılması, flora və fauna növlərinin bərpası haqqında maraqlı məlumatlar əldə etdilər.

Altıağac Milli Parkının ərazisində məməlilərdən – cüyür, qonur ayı, çöl donuzu, vaşaq, yenot, dovşan, tülkü, dələ, canavar; quşlardan – qırqovul, alabaxta, bildirçin, çobanaldadan, çöl qartalı, kəklik, qaratoyuq və s. növlərlə tanış olaraq, onlar haqqında maraqlı, ətraflı praktiki biliklər aldılar. Tələbələr qonur ayı balasını gördülər və onun orada necə qorunub, sonra təbiətə buraxılması haqqında ətraflı məlumatlar əldə etdilər. Daha sonra hidrologiya fənnindən çayda suyun sürətinin və su sərfinin ölçülməsi mövzusu üzrə praktiki işlər görüldü, üzgəc yolu ilə çayın sürətini ölçdülər.

# STUDENTS FROM DEPARTMENT OF GEOGRAPHY AND ENVIRONMENT AT ALTIAGHACH

On October 27, an excursion to the Altiaghach National Park was organized by the Department of Geography and the Environment of Khazar University within the course program of Biology and Hydrology subjects. The National Park is located in the south-east of the Greater Caucasus, in the administrative territory of Khizi and Siyazan regions. During the field study, students first took the Route II according to the subject of biochemistry course. Here they walked through the major tree types as Caucasian oaks, Caucasian ash, Oriental beech, European ash, Silver birch and through the shrub species such as various leaved hawthorns, blackberries, medlar, paliurus, dog rose, hips, etc. Thus, they learned an interesting information about these trees and species and about the conservation of their natural landscapes, the restoration of flora and fauna. Students got interesting, extensive practical knowledge about the mammals on the territory of the Altiaghach National Park - roe deer, brown bear, wild boar, lynx, raccoon, rabbit, fox, squirrel, wolf; From birds - pheasants, common wood pigeons, quails, nightjar, wild eagles, partridge, true thrush etc. The students saw the brown bear's cub and learned how after being kept in there it was later released to nature. Subsequently, within the subject of hydrology, practical work was carried out on measuring water velocity and water consumption in the river, and river velocity was measured by fin method.














# TƏLƏBƏLƏR DAUN SİNDROMLU UŞAQLARA BAŞ ÇƏKDİLƏR

# STUDENTS VISITED CHILDREN WITH DOWN SYNDROME

Oktyabrın 28-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə psixologiya ixtisasının tələbələri sosial layihə çərçivəsində Daun Sindromlu Şəxslərin Reabilitasiyası mərkəzində oldular. Layihənin məqsədi ilk növbədə Daun sindromunun xəstəlik yox, genetik fərqlilik olmasına diqqət çəkmək, mərkəzdə reabilitasiya görən uşaqlarla vaxt keçirmək, onların sosiallaşmasında rol oynamaq və ən əsası, tələbələrin kitabdan öyrəndiyi bilikləri canlı olaraq göstərmək idi.

Layihədə iştirak edən 2-4-cü kurs tələbələri Daun Sindromlu Şəxslərin Reabilitasiyası Mərkəzində uşaqların keçirdikləri prosedurları – loqopedlə canlı seanslarını, rəsm, əmək, xalçaçılıq, musiqi və rəqs dərslərini – birbaşa olaraq izləmək imkanı əldə etməklə yanaşı, həm də uşaqlarla canlı ünsiyyətdə olaraq gələcəyin psixoloqları kimi bu uşaqların cəmiyyətdə formalaşmasında onların vacib rolu olduğunu bir daha dərk etdilər. Sonra tələbələr bir qrup uşaqla birlikdə kulinariya dərsində tort hazırladılar.

Xəzər Universitetinin Psixologiya departamentində tələbələr ilə ənənəvi hal alan sosial layihələrin əsas məqsədi tələbələri mövcud qlobal problemlərə duyarlı şəkildə yetişdirmək və gələcək karyeralarında hər zaman bu məsuliyyəti dərk edərək, fəaliyyət göstərmələrini təmin etməkdir.

Sonda Daun Sindromlu Şəxslərin Reabilitasiya Mərkəzinin direktoru Natella Həsənova belə layihələr vasitəsilə uşaqlara göstərilən qayğı və diqqətin əhəmiyyətli olduğunu vurğulayaraq, iştirakçılara təşəkkürünü bildirdi.

On October 28, within the framework of the social project, students majoring in psychology paid visit to the Down Syndrome Rehabilitation Center, organized by Nilufar Alizade, an instructor and doctoral student at the Khazar University Department of Psychology. The aim of the project was to focus on the fact that Down syndrome is not a disease but a genetic difference, spending time with children in rehabilitation centers, playing a role in their socializing and most importantly, showing the students in practice what they have learned from the book. Second and fourth-year students participating at the project had the opportunity to directly observe the procedures at the Down Syndrome Rehabilitation Center, including live sessions with logopaedist, painting, labor, carpets, music and dance lessons as well as learned about their role, as future psychologists, in shaping of those with Down syndrome in society through direct communication with them. The students then prepared a cake with a group of children during the cooking lesson.

The main goal of traditional social projects with students at the Khazar University Department of Psychology is to educate students on current global challenges and ensure that they are always aware of this responsibility in their future careers.

At the end, Natella Hasanova, the director of the Down Syndrome Rehabilitation Center, thanked the participants, emphasizing the importance of care and attention to children through such projects.














## XƏZƏR UNİVERSİTETİNİN NƏŞRİYYATINDA "QAFQAZ MÜHARİBƏSİ RUS ƏDƏBİYYATINDA" ADLI MONOQRAFİYA ÇAPDAN ÇIXIB

Xəzər Universitetinin Nəşriyyatıda filologiya üzrə fəlsəfə doktoru, dosent Tamilla Əliyevanın "Qafqaz müharibəsi rus ədəbiyyatında" adlı monoqrafiyası çapdan çıxıb. Kitabın elmi redaktoru filologiya elmləri doktoru Asif Hacılıdır.

Monoqrafiyada tarixə Qafqaz müharibəsi kimi düşmüş hadisələrin – Şimali Qafqazda dağlılarla dövlət strukturları arasında iki yüz ilə yaxın davam edən toqquşmaların rus ədəbiyyatında təsviri şərh olunur.

Monoqrafiya mütəxəssislər və filoloq tələbələr üçün nəzərdə tutulmuşdur.

## KHAZAR UNIVERSITY PRESS PUBLISHES MONOGRAPH "CAUCASUS WAR IN RUSSIAN LITERATURE"

Khazar University Press has published a monograph by Associate Professor Tamilla Aliyeva, PhD in Philology, entitled "The Caucasus War in Russian Literature". The scientific editor of the book is Doctor of Philology Asif Hajili.

The monograph describes the events of history in Russian literature, such as the Caucasus war - about two hundred clashes between mountaineers and government agencies in the North Caucasus.

## XƏZƏR UNİVERSİTETİNİN KAMERA ORKESTRİ BƏSTƏKARLAR İTTİFAQININ 85 İLLİYİNƏ HƏSR OLUNMUŞ MUSİQİ FESTİVALINDA

## KHAZAR UNIVERSITY CHAMBER ORCHESTRA AT THE MUSIC FESTIVAL DEDICATED TO 85th ANNIVERSARY OF THE COMPOSERS' UNION

Oktyabrın 25-28-də Azərbaycan Bəstəkarlar İttifaqının 85 illiyinə həsr olunmuş musiqi festivalı keçirilmişdir. Ölkənin bir neçə aparıcı salonlarında keçirilmiş festivalın növbəti konserti oktyabrın 27-də Rəşid Behbudov adına Mahnı teatrında olmuşdur. Tədbirdə Bəstəkarlar İttifaqının rəhbərliyi, musiqi ictimaiyyətinin nümayəndələri, tamaşaçılar iştirak etmişlər.

Konsertdə Xəzər Universiteti Kamera orkestrinin (bədii rəhbər universitetin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqova) müşayiəti ilə müğənni Rasimə Seyidcahan Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlının sözlərinə Elza Seyidcahanın bəstələdiyi "Bakı" mahnısını ifa etmişdir.

On October 25-28, the Music Festival dedicated to the 85th anniversary of the Union of Azerbaijan Composers was held. The subsequent concert of the Festival, which was held in country's several leading halls, took place 27th of October at the Song Theater named after Rashid Behbudov. The event was attended by the leadership of the Composers Union, representatives of the music community and the audience.

At the concert, accompanied by Khazar University Chamber Orchestra (art director - Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department, honored teacher, professor, pianist), singer Rasima Seyidjahan performed the song "Baku", which is poem of Professor Hamlet Isakhanli, the Founder of Khazar University and Chairman of its Board of Directors and Trustees, set to music by Elza Seyidjahan.





# İNGİLİS DİLİ VƏ ƏDƏBİYYATI DEPARTAMENTİNDƏ DİSSERTASİYA MÜDAFİƏLƏRİ

# DISSERTATION DEFENSE AT ENGLISH LANGUAGE AND LITERATURE DEPARTMENT

Oktyabrın 29-da Xəzər Universiteti İngilis dili və ədəbiyyatı departamentinin magistrantları bu mövzularda dissertasiya müdafiə etdilər: Ləman Rafiqzadə - "Azərbaycan Dillər Universitetində və Xəzər Universitetində müəllimlərin kod dəyişikliyi", Nərmin Rzayeva- "Azərbaycanda sosiolinqvistik baxımdan dil seçimi problemi", Leyla Abasova- "Xəzər Universitetində oğlan və qız tələbələr arasında gender məsələsinin sosiolinqvistik aspektləri", Jalə İsmayılova - "İdman xəbərləri nitqində müharibə metaforları", Ülkər Qəhramanlı - "İngilisdilli qəzet materiallarında zərflərin mətni xüsusiyyətləri".

Müdafiə Şurası İngilis dili və ədəbiyyatı departamentinin müdiri Dr.Bəhman Amani (sədr), departamentin müəllimləri İradə Səmədova, İlham Tağıyev və İrina Orucova, departamentin Tədqiqat işləri üzrə koordinatoru Milana Abbasova, Azərbaycan Dillər Universitetinin İngilis dili və ədəbiyyatı kafedrasının professoru Azad Məmmədov, Magistratura, doktorantura və elmi işlər bölməsinin koordinatoru Cabir Məmmədovdan ibarət idi.

Tələbələr mövzularını təqdim etdikdən sora Müdafiə Şurası üzvlərinin suallarını cavablandırdılar. Müzakirələr keçirildikdən sonra işlər müsbət qiymətləndirildi.

On October 29, master students of Khazar University Department of English Language and Literature defended their dissertations on the following topics: Laman Rafigzade, "Teachers' code switching at Azerbaijan University of Languages and Khazar University", Narmin Rzayeva "The issue of language choice from sociolinguistic perspectives", Leyla Abasova, "Sociolinguistic aspects of gender issue among male and female students at Khazar University", Jala Ismayilova "War metaphors in sports", Ulkar Kahramanli" Textual Functions of Adverbs in English newspaper texts".

The defense counsil consisted of Dr. Bahman Amani, the Head of the English Language and Literature Department, Department's teachers - Irada Samadova, Ilham Taghiyev and Irina Orujova, Department's Research Coordinator - Milana Abbasova, Azada Mammedov, Professor of English Language and Literature Department at Azerbaijan University of Languages, and Jabir Mammadli, Coordinator of the Division of Graduate Studies and Research.

After the presentation of the topics, students answered questions of the members of the Defense Council. Following the discussions, the works were evaluated positively.







# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİ "BP AZERBAIJAN"- IN MENTORLUQ PROQRAMINDA

# KHAZAR UNIVERSITY STUDENTS IN "BP AZERBAIJAN'S" MENTORSHIP PROGRAM

"BP Azerbaijan" şirkəti ölkədə bakalavr pilləsi üzrə texniki fakültələrdə təhsil alan (4-cü kurs) universitet tələbələri və məzunların karyera inkişafına dəstək olmaq məqsədilə yeni mentorluq proqramına başlayıb.

Mentorluq proqramının elanı ilə bağlı oktyabrın 30-da keçirilən tədbirdə Təhsil nazirinin müavini Firudin Qurbanov qeyd edib ki, müasir dünyada mentorluğa çox böyük maraq var və bu istiqamətdə BP şirkətinin bu layihəsi təqdirəlayiqdir: "Layihənin əsas məqsədi texniki fakültələrdə təhsil alan, yüksək potensialı ilə seçilən tələbələrə fərdi mentorluq sessiyaları keçirməklə onların öz sosial bacarıqlarını inkişaf etdirmələrinə və özlərinə inamı artırmalarına yardım etməkdir".

Nazir müavini çıxışının sonunda layihə üçün seçilmiş 118 tələbəni təbrik edib və hər birinə uğurlar arzulayıb. Proqramda Xəzər Universiteti, Azərbaycan Dövlət Neft və Sənaye Universiteti, Bakı Mühəndislik Universiteti, Bakı Ali Neft Məktəbi və Azərbaycan-Fransız Universitetindən olan tələbələr iştirak edəcək.

Geniş məlumat bu linkdə:

*https://ikisahil.az/post/bp-azerbaijan-telebeler-uchun-mentorluq-proqramina-bashlayib*

"BP Azerbaijan" has launched a new mentoring program to support career development for university students and alumni who are currently pursuing bachelor's degree at the technical faculties (4th year) of the country.

On $30^{th}$ of October, during the event of the mentoring program announcement, Firudin Gurbanov, Deputy Education Minister emphasized that there is a great interest in mentoring in the modern world, and this project of BP is noteworthy: "The main purpose of the project is to help students, studying at the technical faculties and selected in regard with their high potential, to develop their social skills and build confidence in themselves, by facilitating individual mentoring sessions".

At the end of his speech, the Deputy Minister congratulated 118 students selected for the project and wished them success. Students from Khazar University, Azerbaijan State Oil and Industry University, Baku Engineering University, Baku Higher Oil School and Azerbaijan-French University will participate in the program.

More information available at this link:

*https://ikisahil.az/post/bp-azerbaijan-telebeler-uchun-mentorluq-proqramina-bashlayib*

# SAYTLAR XƏZƏR UNİVERSİTETİNİN MÜƏLLİMİ İLƏ MÜSAHİBƏ DƏRC ETMİŞLƏR

# WEBSITES PUBLISH INTERVIEW WITH KHAZAR UNIVERSITY'S TEACHER

Bir sıra saytlar Heydər Əliyev adına Neft Emalı Zavodunun Ekologiya şöbəsinin rəis müavini, Xəzər Universiteti Coğrafiya və ətraf mühit departamentinin müəllimi Tural Məhərrəmovla geniş müsahibə dərc etmişlər. Müsahibəni aşağıdakı linklər vasitəsilə oxumaq olar:

*https://big.az/374446-ucqar_kendlere_gedib_oz_tecrubemizi_sagirdlerle_bolusurduk_-_musahibe.html*

*https://sonxeber.az/157910/ucqar-kendlere-gedib-oz-tecrubemizi-sagirdlerle-bolusurduk-musahibe*

*https://ann.az/az/ucqar-kendlere-gedib-z-tecrubemizi-sagirdlerle-blusurduk-msahibe/*

*https://qaynarinfo.az/az/ucqar-kendlere-gedib-z-*

On November 12, 2019, several websites published an extensive interview with Tural Maharramov, Deputy Head of the Ecology Department at the Heydar Aliyev Oil Refinery, Khazar University Teacher (Department of Geography and Environment). The interview can be read by following links:

*https://big.az/374446-ucqar_kendlere_gedib_oz_tecrubemizi_sagirdlerle_bolusurduk_-_musahibe.html*

*https://sonxeber.az/157910/ucqar-kendlere-gedib-oz-tecrubemizi-sagirdlerle-bolusurduk-musahibe*

*https://ann.az/az/ucqar-kendlere-gedib-z-*



# XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİNDƏN İBARƏT AZƏRBAYCAN KOMANDASI İSLAM ƏMƏKDAŞLIQ TƏŞKİLATI ÇƏRÇİVƏSİNDƏ KEÇİRİLMİŞ "1-Cİ ROBOTEXNİKA YARIŞMASI"NDA İLK ONLUĞA DÜŞÜB

# KHAZAR UNIVERSITY STUDENT TEAM INCLUDED TO TOP 10 IN "ROBOTICS COMPETITION" HELD WITHIN THE FRAMEWORK OF ORGANIZATION OF ISLAMIC COOPERATION

Oktyabrın 27-31-də Özbəkistanın Daşkənd şəhərində İslam Əməkdaşlıq Təşkilatı (İƏT) çərçivəsində gənclər arasında "1-ci Robotexnika yarışması" keçirilib. Yarışlar 2 kateqoriya – "ROBOT SUMO" və "ROBOT FUTBOL" kateqoriyaları üzrə təşkil olunub.

Qeyd edək ki, "1-ci Robotexnika yarışması"nda ölkəmizi Nəqliyyat, Rabitə və Yüksək Texnologiyalar Nazirliyi, Xarici İşlər Nazirliyi və AREA – Azərbaycan Robotexnika Mühəndisliyi Akademiyasının birgə təşkilatçılığı ilə hazırlanan komanda təmsil edib.

Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakultəsinin müəllimi, AREA-nın təsisçisi Rəhman Rəsulzadənin mentorluq etdiyi, fakültənin kompüter mühəndisliyi ixtisasının dördüncü kurs tələbələri Emin Bayramov və Məhəmməd Məmmədlidən ibarət komanda "ROBOT SUMO" yarışı üzrə 18-23 yaş kateqoriyasında iştirak edib.

Qeyd edək ki, 100-dən çox ölkədən nümayəndənin qatıldığı yarışda Azərbaycan ilk dəfə olaraq təmsil olunub və 7-ci yerə çıxaraq ilk onluğa düşüb.

Ölkə mediası Azərbaycan komandasının bu uğurunu Azərbaycan və ingilis dillərində geniş işıqlandırıb:

*http://ictnews.az/read-63882-news-1.html*

*https://metbuat.az/news/1282590/azerbaycan-islam-emekdasliq-teskilati-cercivesinde-1-ci-robo.html*

*http://ictnews.az/read.php?lang=2&content=63884*

*https://xeberler.az/new/details/azerbaycan-1-ci-robototexnika-yarismasinda-temsil-olunub--24471.htm* və s.

On October 27-31, the "1st Robotics Competition" among young people was held in Tashkent, Uzbekistan, within the framework of the Organization of Islamic Cooperation (OIC). The competitions are organized in 2 categories - "ROBOT SUMO" and "ROBOT FUTBOL".

It is worth mentioning that at 1st Robotics Competition our country was represented by a team, prepared with joint arrangements of the Ministry of Transport, Communications and High Technologies, the Ministry of Foreign Affairs and the AREA - Azerbaijan Academy of Robotics Engineering.

"ROBOT SUMO" team, consisting of 4th-year undergraduate students in Computer Engineering, Emin Bayramov and Mahammed Mammadli, took part in a 18-23-year-old category, under the supervision of Rahman Rasulzade, Teacher at the School of Sciences and Engineering, Khazar University, and Founder of AREA.

It should be noted that for the first time in the competition, which was attended by representatives from more than 100 countries, Azerbaijan was ranked on the 7th place and thus included in the top ten.

The country's media widely covered the success of the Azerbaijani team both in Azerbaijani and English languages:

*http://ictnews.az/read-63882-news-1.html*

*https://metbuat.az/news/1282590/azerbaycan-islam-emekdasliq-teskilati-cercivesinde-1-ci-robo.html*

*http://ictnews.az/read.php?lang=2&content=63884*

*https://xeberler.az/new/details/azerbaycan-1-ci-robototexnika-yarismasinda-temsil-olunub--24471.htm*




# BRITISH COUNCIL-AZƏRBAYCAN MƏZUNLARIN MƏŞĞULLUĞUNUN ARTIRILMASINA DAİR FORUM KEÇİRDİ

# ENHANCING GRADUATE EMPLOYABILITY POLICY FORUM BY THE BRITISH COUNCIL AZERBAIJAN

Oktyabrın 31-də Xəzər Universiteti İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva British Council-Azərbaycan tərəfindən Bakıdakı "Hilton" otelində təşkil edilən Məzunların Məşğulluğunun Artırılmasına dair Forumunun panel müzakirələrində iştirak etdi. O, "Məzunların Məşğulluğu Ali Təhsilin "Niyəsidir" mövzusunda etdiyi çıxışında Azərbaycandakı ali təhsil müəssisələrinin müvafiq bacarıqlara sahib məzunları necə yetişdirə biləcəyindən danışdı. Bu konfrans British Council-ın Azərbaycanda Ali Təhsil Məşğulluq Proqramının başlanğıcı oldu.

Konfrans British Council-ın ölkə üzrə direktoru Summer Xian`ın giriş nitqi ilə başladı. Sonra Lordlar Palatasının üzvü, Baş nazirin İraq, Azərbaycan, Türkmənistan və Qazaxıstandakı ticarət elçisi, Winterbourne`ın Baronessası Emma Nicholson Böyük Britaniya ilə Azərbaycan arasındakı münasibətlərə dair çıxış etdi. Azərbaycan Respublikasının təhsil naziri Ceyhun Bayramov Azərbaycan ali təhsilinin nailiyyətləri haqqında söhbət açdı.

Konfrans gün ərzində Azərbaycan ali məktəblərinin nümayəndələri ilə panel müzakirələrində davam etdi. Proqramın İngiltərə tərəfdaşları məşğulluğun öz tədris planlarına necə daxil edildiyi və məzunların məşğulluğunun artırılmasına dəstək göstərmək üçün İngiltərədə hansı daxili və xarici xidmətlər yaradıldığı haqqında təcrübələrini bölüşdülər.

Xəzər Universitetini tədbirdə Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova, Təbiət elmləri və mühəndislik fakültəsinin dekan müavini Fəxrəndə Əlimərdanova və Keyfiyyətin Təminatı Mərkəzinin direktoru Lyudmila Sotova təmsil etdilər.

On October 31, Director of Development, Raziya Isayeva participated in the panel discussion of the Graduate employability Policy Forum organized by the British Council Azerbaijan at the Baku Hilton Hotel. She talked about how higher education institutions in Azerbaijan could produce graduates with relevant skills in her speech entitled *Graduate Employability is it a 'why' of Higher Education*. This conference was the beginning of the British Council's Higher Education employability programme in Azerbaijan.

The conference started with the opening speech of the British Council's Country Director Mr. Summer Xia. Then Baroness Emma Nicholson of Winterbourne, member of the house of Lords, Prime Minister's Trade Envoy to Iraq, Azerbaijan, Turkmenistan and Kazakhstan gave a speech about relationships between the UK and Azerbaijan. The minister of Education of the Republic of Azerbaijan Mr. Jeyhun Bayramov talked about achievements of Azerbaijan Higher Education.

The conference continued throughout the day in the panel discussions with representatives of Azerbaijan HEIs. The UK partners shared their experiences on how the employability is embedded in their curriculum, and what are the internal and external services established in the UK to support the graduate employability enhancement.

Khazar University was also represented by Associate Professor Elza Semedova, the Dean of the School of Humanities, Education and Social Sciences, Dr. Fakhranda Alimardanova, the Vice-Dean of School of Science and Engineering, and Mrs. Lyudmila Sotova, Head of Quality Assurance.





## NEFT MÜHƏNDİSLİYİ SAHƏSİNDƏ APARILAN TƏDQİQAT İŞLƏRİ İLƏ BAĞLI SEMİNAR

## SEMINAR ON THE RESEARCH WORKS CONDUCTED IN THE FIELD OF OIL ENGINEERING

Oktyabrın 31-də Xəzər Universitetindən neft mühəndisliyi ixtisası üzrə bakalavr dərəcəsi ilə məzun olmuş Yevgeniy Samarkin tərəfindən aparılan araşdırma ilə bağlı seminar keçirildi. Y.Samarkin quyuların qazılması ilə bağlı bu layihə üzərində Xəzər Universitetinin doktorantı və müəllimi Ehsan Cəfərinin rəhbərliyi altında bir ildən çox müddət ərzində işləyir.

İstiqamətli qazma neft və qaz yataqlarının inkişafında çox vacib bir vasitəyə çevrilmişdir. Karbohidrogen hasilatı üçün cari xərclər idarə olunan istiqamətli qazmanın zəruriliyini əvvəlkindən daha böyük dərəcədə təyin edir. Samarkin seminarda araşdırma nümunələri əsasında istiqamətli quyuların dizaynına, təhliline və proqramlaşdırılmasına yönəlmiş işlərinin nəticələrini nümayiş etdirdi.

Seminarda Xəzər Universitetinin Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr.Hassan Niknafs, Xəzər Universitetindəki eiLink Araşdırma və İnkişaf Mərkəzinin nümayəndələri –Xəzər Universitetinin neft mühəndisliyi üzrə doktorantları Şəhriyar Alxaslı, İzat Şahsenov, Vəfa Əhmədzadə, Məsud Mehrizadə (müəllim) və departamentin tələbələri iştirak edirdilər.

On October 31, a seminar related to the research work performed by Yevgeniy Samarkin, one of the recently BS graduates in Petroleum Engineering, was held. Y. Samarkin has been working on this project related to the Drilling of Oil Wells for more than a year under the supervision of Ehsan Jafari, PhD candidate and lecturer at Khazar University.

Directional drilling has become a very important tool in the development of oil and gas deposits. Current expenditures for hydrocarbon production have dictated the necessity of controlled directional drilling to a much larger extent than previously. In this seminar, Samarkin showed the results of his work focusing on designing, analyzing and programing of directional wells based on real case studies.

The seminar was attended by Professor Hassan Niknafs, Dean of the School of Science and Engineering, the representatives of eiLink Research & Development Center at Khazar University and PhD candidates in Petroleum Engineering at Khazar University - Shahriyar Alkhasli, Izat Shahsenov, Vafa Ahmadli, Masoud Mehrizadeh (teacher) and also the students of Petroleum Engineering Department.







# Aİ-NİN AZƏRBAYCANDAKI NÜMAYƏNDƏLİYİ RƏHBƏRİNİN XƏZƏR UNİVERSİTETİNDƏ SEMİNARI

# HEAD OF THE EU DELEGATION TO AZERBAIJAN DELIVERS A SEMINAR AT KHAZAR UNIVERSITY

Noyabrın 1-də Avropa İttifaqının (Aİ) Azərbaycandakı nümayəndəliyinin rəhbəri Kestutis Jankauskas Xəzər Universitetində seminar keçirdi. Səfirin "Aİ-Azərbaycan əlaqələri" mövzusunda keçirdiyi seminarda Şərq Tərəfdaşlığı Proqramında Azərbaycanın rolu və Aİ ilə Azərbaycan arasında ikitərəfli və çoxtərəfli əlaqələrin perspektivləri müzakirə edildi.

Seminar sual-cavab sessiyası ilə davam etdi və sonda səfir fəal iştiraklarına görə tələbələrə təşəkkür etdi.

Seminardan sonra səfir Jankauskas Xəzər Universitetinin rəhbərliyi və əməkdaşları ilə görüşdü. Görüşdə Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova, universitetin tədris işləri üzrə prorektoru professor Məhəmməd Nuriyev, İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva, İqtisadiyyat və menecment fakültəsinin dekanı Ceyhun Məmmədov, Siyasi elmlər və fəlsəfə departamentinin müdiri Elmar Mustafayev, Avropa Araşdırmalar Mərkəzinin direktoru Baba Bayramlı iştirak edirdilər. Səfirə Xəzər Universitetinin tarixi, dərəcə proqramları, beynəlxalq əlaqələri və universitetin Erasmus+ layihələrində iştirakı barədə məlumat verildi.

Kestutis Jankauskas dəvətə və Siyasi elmlər və fəlsəfə departamentinin tələbələri ilə maraqlı və interaktiv bir seminar keçirdiyinə görə Xəzər Universiteti rəhbərliyinə minnətdarlığını bildirdi.

AZƏRTAC tədbir barədə xəbər yayımlamış və bəzi ölkə saytları həmin xəbəri dərc etmişlər:

*https://azertag.az/xeber/Avropa_Ittifaqi_ile_Azerbaycan_arasinda_ikiterefli_elaqelerin_perspektivleri_muzakire_edilib-1351130*

On November 1, Ambassador Kestutis Jankauskas, head of the European Union Delegation to the Republic of Azerbaijan, delivered a seminar at Khazar University. Ambassador's "EU-Azerbaijan Relations" seminar was focused on the role of Azerbaijan in the Eastern Partnership and prospects of bilateral and multilateral relations between the EU and Azerbaijan.

Ambassador Jankauskas concluded his seminar by welcoming questions from the audience after which he thanked the students for their active participation.

Following the seminar, Ambassador Jankauskas met with Khazar University leadership and staff members. The meeting was attended by Associate Professor Irada Khalilova, Rector of the Khazar University; Professor Mahammad Nuriyev, Vice-Rector for Academic Affairs; Ms. Raziya Isayeva, Director of Development; Dr. Jeyhun Mammadov, Dean of the School of Management and Economics; Dr. Elmar Mustafayev, Head of the Political Science and Philosophy Department; and Baba Bayramli, Director of European Studies Center. Ambassador Jankauskas was informed about the history of Khazar University, its degree programs, research capacity, international relations, and involvement of Khazar University in Erasmus+ projects.

Ambassador Jankauskas expressed his gratitude to Khazar University administration for an invitation and expressed his joy for an interesting and interactive seminar with students of Political Science and Philosophy Department.

AZERTAC spread the news about the event and some country websites have published the news:

*https://azertag.az/xeber/Avropa_Ittifaqi_ile_Azerbaycan_arasinda_ikiterefli_elaqelerin_perspektivleri_muzakire_edilib-1351130*















# "AZƏRBAYCANDA MİLLİ KVALİFİKASİYA ÇƏRÇİVƏSİNİN İCRASINA DƏSTƏK" LAYİHƏSİNİN SERTİFİKATLARININ TƏQDİM OLUNMASI MƏRASİMİ

# CERTIFICATES AWARDING CEREMONY OF THE PROJECT "SUPPORT TO IMPLEMENTATION OF NATIONAL QUALIFICATIONS FRAMEWORK IN AZERBAIJAN"




Noyabrın 1-də Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova Avropa İttifaqının maliyyə dəstəyi ilə Azərbaycan Respublikasının Təhsil İnstitutu tərəfindən Təhsil Nazirliyinin əsas benefisiarı olduğu "Azərbaycanda Milli Kvalifikasiya Çərçivəsinin icrasına dəstək" layihəsinin sertifikatlarının təqdim olunması mərasimində iştirak etdi və kvalifikasiya üzrə işçi qrupunun fəal üzvü kimi sertifikatla təltif olundu.

On November 1, Associate Professor Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences at Khazar University, took part at the presentation of certificates ceremony of the Project "Support to the Implementation of the National Qualification Framework in Azerbaijan", which is the main beneficiary of the Ministry of Education, being organized by the Institute of Education of the Republic of Azerbaijan and with the financial support of the European Union. Associate Professor Elza Samadova has been awarded the certificate as an active member of the Qualification Working Group.

# COĞRAFİYA VƏ ƏTRAF MÜHİT DEPARTAMENTİNİN ƏMƏKDAŞLARI TÜRKİYƏDƏ OLDULAR

Qafqaz Dağ Regionu Elmi Şəbəkəsinin təşkilatçılığı ilə oktyabrın 30-dan noyabrın 1-dək Türkiyənin Ankara şəhərində "2-ci Qafqaz Dağ Forumu" keçirildi. Forumda Azərbaycan, Gürcüstan, Türkiyə, İran İslam Respublikası, Rusiya Federasiyası və Ermənistandan nümayəndələr iştirak edirdilər.

Azərbaycan heyətini Azərbaycan Milli Elmlər Akademiyasının, Xəzər Universitetinin (Rövşən Abbasov, Rövşən Kərimov və Günay Kərimova), Azərsu Açıq Səhmdar Cəmiyyətinin, Azərbaycan Dövlət Neft və Sənaye Universitetinin nümayəndələri təmsil edirdilər. Forumda Rövşən Abbasov "Azərbaycanda yüksək dağ ekosistemləri üçün ekosistem xidmətləri üçün ödənişlərin tətbiqi", Rövşən Kərimov "Azərbaycanda regionların davamlı demoqrafik inkişafı", Günay Kərimova isə "Peyk şəkillərindən istifadə edərək, kənd təsərrüfatı landşaftlarında dəyişikliklərin aşkarlanması" mövzularında çıxışlar etdilər.

# EMPLOYEES OF THE DEPARTMENT OF GEOGRAPHY AND ENVIRONMENT VISITEDTURKEY

From October 30 to November 1, "2nd Caucasus Mountain Forum" was held in Ankara, Turkey, organized by the Scientific Network of the Caucasus Mountain Region. Representatives from Azerbaijan, Georgia, Turkey, the Islamic Republic of Iran, the Russian Federation and Armenia attended the forum. The Azerbaijani delegation was represented by the representatives of the Azerbaijan National Academy of Sciences, Khazar University (Rovshan Abbasov, Rovshan Karimov and Gunay Karimova), Azersu OJSC and the Azerbaijan State Oil and Industry University. At the forum, Rovshan Abbasov made a presentation on "Introducing Payment for Ecosystem Services for High Mountain Ecosystems in Azerbaijan", Rovshan Karimov on "Sustainable Demographic Development of Regions in Azerbaijan" and Gunay Karimova on "Detection of Changes in Agricultural Landscapes through Satellite Images".






# "EMOSİONAL İNTELLEKT" MÖVZUSUNDA SEMİNAR

# SEMINAR ON "EMOTIONAL INTELLIGENCE"

Noyabrın 4-də Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadənin təşkilatçılığı ilə "Azərsun" Holdinqin Təlim və inkişaf şöbəsinin müdiri, "Six Seconds" sertifikatlı EQ üzrə mütəxəssis və "Dan ulduzu" kitabının müəllifi Elçin Əzimli universitetdə "Emosional intellekt" mövzusunda seminar keçirdi.

Tələbələr, universitet əməkdaşları və psixoloqların iştirak etdiyi seminar zamanı koçinq, emosional intellektdən karyera yüksəlişində necə istifadə edilməsi və s. kimi məsələlərdən danışıldı. Sual-cavab şəklində davam edən seminarda, təşkilat psixologiyası fənnini öyrənən tələbələr Elçin Əzimlinin iş təcrübəsi ilə xüsusilə yaxından tanış oldular.

On November 4, Elchin Azimli, Head of Training and Development at Azersun Holding, a certified EQ expert with "Six seconds" certificate and author of "Dan Star" book, delivered a seminar on "Emotional Intelligence" at the University, upon the arrangements made by Nilufar Alizade, a lecturer and PhD student at the Department of Psychology at Khazar University. Students, coaching during the workshop, attended by University staff and psychologists, talked about how emotional intelligence can be used in career advancement, and other issues. During the seminar which followed by Q&A session, students who were interested in the psychology of the organization inquired into the work experience of Elchin Azimli.







# TÜRKİYƏLİ TƏLƏBƏLƏR TƏCRÜBƏLƏRİNİ ARTIRMAQ MƏQSƏDİLƏ NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNDƏ OLDULAR

Naxçıvan Dövlət Universiteti ilə Türkiyənin müxtəlif universitetləri arasında bağlanmış ikitərəfli müqavilələrə müvafiq olaraq Qars Qafqaz Universitetində Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında təhsil alan türkiyəli tələbələr Naxçıvan Dövlət Universitetində oldular. 3 bakalavr, 1 magistr olmaqla 4 tələbə və 1 müəllim heyətinin iştirakı ilə qonaqlar keçdikləri ixtisaslara uyğun mühazirələr dinləyiblər. Bir həftəlik təcrübə müddətində tələbələr universitetin Tarix-filologiya fakültəsinin Azərbaycan dili və ədəbiyyatı müəllimliyi ixtisasında tədris olunan dərslərdə iştirak edib, birgə müzakirlər aparıblar.

Tələbələrin təcrübəsində faydalı əhəmiyyət daşıyacağı nəzərə alınaraq Jurnalistika və kitabxanaçılıq kafedrasında dilçiliyin elmi-nəzəri məsələlərinə dair dəyirmi masa təşkil edilib. Müzakirədə Azərbaycan dilçiliyi kafedrasının müəllimləri ilə birgə dilçiliyin ümumi cəhətlərindən bəhs edilib. Qonaqlar Azərbaycan və türk dillərinin qarşılıqlı cəhətlərindən danışıblar. Qars Qafqaz Universitetinin Çağdaş türk ləhcələri və ədəbiyyatları fakültəsinin Azərbaycan türkcəsi və Ədəbiyyatı ixtisası üzrə dosent, əslən Qazaxıstandan olan Çulpan Zaripova Çetin "Universitet" televiziyasına müsahibə verib.

Tələbələrin musiqi sahəsində xüsusi bacarıqlarını nəzərə alan universitet heyəti tələbələrin İncəsənət fakültəsində konsertini də təşkil ediblər. Emre Nalbantoğlu, Meltem Kaymakçı başda olmaqla Naxçıvan Dövlət Universiteti tələbələrinin də qatıldığı konsert maraqlı və yaddaqalan olub. Tələbələr eyni zamanda Naxçıvanın tarixi yerlərinə gəzinti, muzeylərə ekskursiyalar təşkl edilib.

Qeyd edək ki, universitetlərarası qarşılıqlı əlaqə, təcrübə mübadiləsi tələbələrin gələcəkdə bilik və bacarıqlarının artırılmasında, yüksək ixtisaslı kadr kimi formalaşmasında mühüm əhəmiyyətə malikdir.



# NAXÇIVAN DÖVLƏT UNİVERSİTETİNİN KOLLEKTİVİ CƏMŞİD NAXÇIVANSKİ MUZEYİNDƏ

"Muzey günləri" çərçivəsində Naxçıvan Dövlət Universitetinin kollektivi Cəmşid Naxçıvanskinin Muzeyində olublar. Qeyd olunub ki, bu muzey naxçıvanskilər nəslinin sonuncu generalı olan Cəmşid Naxçıvanskinin simasında Naxçıvanskilərin digər görkəmli nümayəndələrinin həyat və fəaliyyətini özündə əks etdirir. Bildirilib ki, muzey 6 ekspozisiya zalı, fond və iş otaqlarından ibarətdir. Muzeydə Cəmşid Naxçıvanskinin həyat və fəaliyyətini əks etdirən fotoşəkillər, orden və medallar, müxtəlif sənədlər, kitablar, məktub və əlyazmalar, şəxsi və ev əşyaları olmaqla ümumiyyətlə 5400-ə yaxın eksponat nümayiş etdirilir.

Bunların içərisində Cəmşid Naxçıvanskiyə, Azərbaycan atıcı diviziyasının tarixinə, keçdiyi döyüş yoluna həsr olunmuş məqalələr, kitablar xüsusi yer tutur. Həmin eksponatlardan 500-ə yaxını ekspozisiya zalında nümayiş etdirilir. Cəmşid Naxçıvanskinin xatirəsinin əbədiləşdirilməsi, onun uşaqlıq və gənclik, həmçinin hərbi təhsil illəri, birinci Dünya müharibəsində iştirakı, Azərbaycan Xalq Cümhuriyyətinin təşkil etdiyi Milli Ordu quruculuğunda, Azərbaycanda Sovet hakimiyyəti qurulandan sonrakı dövrdə və Moskvada Frunze adına Hərbi Akademiyada hərbi-pedaqoji fəaliyyəti, təltifləri və repressiyaya məruz qalması, eləcə də generalın ailəsi və yaxın qohumları ilə bağlı sənədlər, kitablar, fotoşəkillər və digər eksponatlar müxtəlif bölmələrdə mühafizə edilir. Araz-Türk Respublikasının fəaliyyətindən bəhs edən bölmədə isə tədqiqat materialları və tarixi sənədlər nümayiş etdirilir.

**Səadət Əliyeva,**

***NDU-nun Televiziya, mətbuat və ictimaiyyətlə əlaqələr bölməsinin müdiri***




# DÜNYA VAHİD SAĞLAMLIQ GÜNÜNƏ HƏSR EDİLMİŞ ÜÇÜNCÜ SİMPOZİUM




Noyabrın 4-də Xəzər Universitetinin Həyat elmləri departamenti Dünya Vahid Sağlamlıq Gününə həsr olunmuş üçüncü simpozium keçirdi. Xəzər Universitetinin rektoru dosent İradə Xəlilova tədbiri açaraq, iştirakçıları salamladı, Vahid Sağlamlıq prinsipləri və qloballaşan dünyada onun getdikcə artan əhəmiyyəti haqqında iştirakçılara məlumat verdi. Simpoziumda Azərbaycanın müxtəlif dövlət və özəl qurumlarının mütəxəssisləri, elm müəssisələrinin alimləri müxtəlif məruzələrlə çıxış etdilər.

Xəzər Universitetinin Coğrafiya və ətraf mühit departamentinin müdiri Dr. Rövşən Abbasov "Ətraf mühitin sağlamlıqda rolu", Azərbaycan Respublikası Səhiyyə Nazirliyinin İcbari Tibbi Sığorta üzrə Dövlət Agentliyinin əməkdaşı Dr. Tural Qulu "İcbari tibbi sığorta sisteminin üstünlükləri", Azərbaycan Elmi Tədqiqat Baytarlıq İnstitutunun direktoru Dr. Siala Rüstəmova "Zoonoz xəstəliklərə qarşı mübarizə tədbirləri", Azərbaycan Qida Təhlükəsizliyi Agentliyinin Heyvan Sağlamlığı şöbəsinin müdiri Dr. Qalib Əbdüləliyev "Respublikada heyvan xəstəlikləri ilə mübarizə işinin təşkili", Azərbaycan Hava Yollarının əməkdaşı Dr. Şəlalə Hüseynova "Qidada olan təhlükələr və onların idarə olunması", Ekologiya və Təbii Sərvətlər Nazirliyinin Bakı və Abşeron yarımadasının palçıq vulkanları qrupu Dövlət Təbiət Qoruğunun direktoru Ceyhun Paşayev "Xüsusi mühafizə olunan ərazilərin insan sağlamlığında rolu", AMEA Mikrobiologiya İnstitutunun Mikrobioloji biotexnologiya laboratoriyasının əməkdaşı Dr. Səfadə Tağıyeva "Azərbaycanın aqrar sektorunda bitki bakteriozları ilə mübarizədə yeni bakterioosinlərin istifadəsinin əhəmiyyəti" mövzularında məruzə etdilər.

*(Ardı səh.58-də)*





# THE THIRD SYMPOSIUM ON WORLD HEALTH DAY

On November 4, Khazar University's Department of Life Sciences held the 3rd symposium on World Health Day. Associate Professor Irada Khalilova, the Rector of Khazar University, delivering her opening statement greeted the participants and informed them about the principles of One Health and its ever-increasing importance in a globalized world. Specialists of various public and private institutions of Azerbaijan, scholars of the scientific institutions made presentations at the symposium.

The following reports were delivered by the participants: Rovshan Abbasov, Head of the Department of Geography and Environment at Khazar University, "The Role of the Environment in Health"; Dr. Tural Qulu, "The Advantages of the Compulsory Health Insurance System"; Dr. Siala Rustamova, Director of the Azerbaijan Scientific Research Veterinary Institute, "Measures in Curing Zoonotic Disease"; Dr. Galib Abdulaliyev, Head of the Animal Health Department of the Azerbaijan Food Safety Agency, "Organization of the Fight Against Animal Diseases in the Republic"; Dr. Shalala Huseynova, Azerbaijan Airways Staff member, "Food Hazards and Their Management"; Ceyhun Pashayev, Director of State Nature Reserve of the Baku and Absheron Peninsula of the Ministry of Ecology and Natural Resources, "The Role of Special Protected Areas in Human Health"; Dr. Safada Taghiyeva, Employee of the Microbiology Biotechnology Laboratory of ANAS Institute of Microbiology, "The Importance of the Use of New Bacteriocins in the Fight Against Plant Bacteria in the Agricultural Sector of Azerbaijan".

*(To be continued page 58)*









Tədbirdə Xəzər Universitetinin Həyat elmləri departamentinin müəllimləri Dr. Asəf Ömərov və Dr. Cavid Ocaqi, Bakı Dövlət Universitetinin Sabah qruplarının müəllimi Dr. Mehdi Əli, Respublika Sanitariya-Karantin Müfəttişliyinin əməkdaşı Gülnarə Quliyeva, Azərbaycan Respublikası Atçılıq Federasiyasının mütəxəssisi Dr. Kamran Kərimli, VITTA Scientific-Technical Companynin əməkdaşı Aleksandra Zəkiyeva, həmçinin, doktorant və könüllü tələbələr iştirak edirdilər.

The event was also attended by teachers from the Department of Life Sciences at Khazar University – Dr. Asaf Omarov and Dr. Javid Ojagi, teacher of the Sabah Group of Baku State University Mehdi Ali, employee of the Republican Sanitary and Quarantine Inspectorate, Gulnara Guliyeva, Specialist of the Equestrian Federation of the Republic of Azerbaijan Dr. Kamran Kerimli, Employee of the VITTA Scientific-Technical Company Alexandra Zakiyeva, and PhD and volunteer students.







# KİM-İN ƏMƏKDAŞLARI "TÜRKİYƏNİN MÜASİR ELEKTRON RESURSLARI" ADLI TƏLİMDƏ

# LIC STAFF AT "MODERN ELECTRONIC RESOURCES OF TURKEY" TRAINING

Noyabrın 4-də Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzinin (KİM) direktoru Tatyana Zaytseva və direktor müavini Aytac Misgərli AMEA-nın Mərkəzi Elmi Kitabxanasının təşkilati dəstəyi ilə kitabxanada keçirilən "Türkiyənin müasir elektron resursları" adlı təlimdə iştirak etdilər.

Təlimin əsas mövzuları "Türkiyədə ali təhsildə e-mənbələr" və "Hiperkitab: Türkiyənin ilk rəqəmsal kitabxanası" idi.

Təlimin sonunda gələcəkdə "Hiperkitab" kitabxanasından Azərbaycan Kitabxana İnformasiya Konsorsiumunun üzvlərinə əməkdaşlıq çərçivəsində sınaq müddətinin verilməsi planlaşdırıldı.

On November 4, Khazar University Library and Information Center's (LIC) Director Tatyana Zayseva and Deputy Director Aytaj Misgarli participated in a training on "Modern Electronic Resources of Turkey" organized by the ANAS Central Scientific Library at the Library.

The main topics of the training were "E-sources in Higher Education in Turkey" and "Hiperkitab: Turkey's first digital library".

At the end of the training it is planned to give the members of the Azerbaijan Library Information Consortium a trial period from the Hyperkitab Library within the framework of cooperation.

# ÇİN DİLİNDƏ BİLİKLƏRİN OLDUĞU MƏLUMAT MƏNBƏLƏRİNƏ SINAQ GİRİŞİ VERİLİB

# TRIAL ACCESS FOR CHINESE KNOWLEDGE-BASED INFORMATION RESOURCES

Xəzər Universiteti Kitabxana-İnformasiya Mərkəzi Çin Milli Bilik İnfrastrukturuna (ÇMBİ) giriş üçün 8 həftəlik sınaq imkanı əldə etmişdir.

1988-ci ildə istifadəyə verilən ÇMBİ Çin dilində əhəmiyyətli biliklərin olduğu məlumat qaynaqlarını birləşdirmək üçün yaradılmış elektron platformadır. Nəticədə, ÇMBİ dünyada Çinin siyasətini, iqtisadi, humanitar və sosial, elmi və texnoloji inkişafını əks etdirən məlumat qaynaqlarının ən nüfuzlu, əhatəli və ən böyük mənbəyi olmuşdur.

Çin məlumat mənbələrinə Çinin akademik jurnalları, Çinin ən başlıca qəzetləri, Çinin doktorluq, magistrlik dissertasiyaları, Çindəki konfransların materialları daxildir.

Məlumat bazasının ingilis dilində interfeysi və əsas sosial elm və texnologiya sahələrini əhatə edən ingilis dilində 400-dən çox elmi jurnal var (bir çox jurnalın ingilis dilində xülasələri var). Beləliklə, bazada istənilən mövzu ilə əlaqəli məqalələr tapmaq mümkündür. Ancaq Çin dilində axtarılsa, daha çox nəticə əldə etmək olar.

Məlumat bazası ilə tanış olmağa və xüsusiyyətlərini öyrənməyə kömək məqsədilə sərbəst sınaq müddəti verilir.

Khazar University Library & Information Center has got 8-week trial access for China National Knowledge Infrastructure (CNKI).

CNKI launched in 1988, is an electronic platform created to integrate significant Chinese knowledge-based information resources. As a result, CNKI is the most authoritative, comprehensive, and largest source of China-based information resources in the world, reflecting the latest developments in Chinese politics, economics, humanity and social science, science and technology.

Chinese information resources include China Academic Journals, China Core Newspapers, China Doctor/Master's Dissertations, China Proceedings of Conference.

The database has an English language interface and over 400 academic journals in English covering major social science and technology areas (more journals have English abstracts). So, you should be able to find articles related to your topic. However, you will get many more search results if you search in Chinese.

A free trial period available to help you familiarize yourself with the database and learn its features.





# "XƏZƏR"DƏ QLOBAL İMKANLAR" MÖVZUSUNDA TƏDBİR





Noyabrın 4-də Xəzər Universitetinin Beynəlxalq əlaqələr şöbəsinin təşkilatçılığı ilə universitetin Mərmər Zalında "Xəzər"də qlobal imkanlar" adlı tədbir keçirildi. Tədbirin məqsədi Universitetin tələbə və müəllim heyətinə Xəzər Universitetinin onlar üçün yaratdığı beynəlxalq layihələrdə və mübadilə proqramlarında iştirak imkanları barədə məlumat vermək, eləcə də, xarici universitetlərdə mübadiə müddətlərini başa çatdırmış tələbələr üçün öz təcrübələrini digər tələbələrlə bölüşməyə şərait yaratmaq idi.

Xəzər Universitetinin rektoru, dosent İradə Xəlilova tədbiri giriş sözü ilə açaraq tələbələrə uğurlar arzuladı. Tədbirdə həm universitetin əməkdaşları, həm də tələbələr təqdimatlarla çıxış etdilər.

Sonra Beynəlxalq əlaqələr şöbəsinin koordinatoru Lamiyə Pənahova universitetin tərəfdaş olduğu Erasmus+ mübadilə proqramları, ikitərəfli mübadilə proqramları, Mövlana proqramı və ikili diplom imkanları haqqında təqdimatla çıxış etdi. O, həmçinin, tələbələrin müraciət qaydaları, tələblər, son müraciət tarixləri ilə əlaqədar suallarını da cavablandırdı.

İnkişaf Mərkəzinin direktoru Raziyə İsayeva British Council tərəfindən dəstəklənən "Creative Spark" proqramı haqqında və Xəzər Universitetinin bu çərçivədə yeni qazandığı layihə haqqında təqdimatla çıxış edərək, tələbələrin orada iştirak imkanları haqqında məlumat verdi. Psixologiya departamentinin müəllimi Nilufər Əlizadə tələbələri Xəzər Universitetinin təşkil etdiyi "hackathon" tədbiri və tələbələrin orada iştirak imkanları barədə məlumatlandırdı.

*(Ardı səh.62-də)*






# EVENT ON "GLOBAL OPPORTUNITIES IN KHAZAR"





On November 4, an event dedicated to "Global Opportunities in Khazar" was organized by International Affairs Office at Khazar University Marble Hall. The aim of the meeting was to familiarize the students and staff about international projects and international exchange opportunities for them provided by Khazar University. The other aim of the event was to create a ground for students who has participated in exchange programs to share their experiences with their fellow.

Rector of Khazar University, Assoc. Prof. Irada Khalilova opened the meeting with her greetings and wished all the students good luck. During the meeting both staff and students made presentations.

Coordinator of International Affairs Office, Lamiya Panahova presented student exchange opportunities and talked about Erasmus+, Mevlana, bilateral exchange agreements, and dual degree programs. She answered students' questions about the applications, selection procedure, requirements, and deadlines.

Director of the Development Office, Raziya Isayeva made a presentation on British Council's Creative Spark initiative and a new project won by Khazar University and provided useful information on the student's role and participation in it. On her turn, lecturer of Psychology Department Nilufar Alizada gave information about the hackathon event organized by Khazar University and explained how students can participate in it.

*(To be continued page 62)*





Tələbələr də öz təqdimatlarını nümayiş etdirdilər. Xəzər Universitetinin doktorantı Moozhan Serpoush İspaniyanın Cadiz Universitetində Erasmus+ mübadilə tələbəsi olaraq öz təcrübələrini bölüşdü və tələbələrə orada vaxtlarını sərfəli keçirmək üçün məsləhətlər verdi. Digər bir doktorant tələbə Maryam Adli də Xəzər Universitetində magistr tələbəsi olduğu müddətdə Türkiyənin Səlcuq Universitetində Mövlana mübadilə tələbəsi kimi iştirakından danışdı, tələbələrin suallarını cavablandırdı. Xəzər Universitetində hazırda mübadilə tələbəsi olaraq təhsil alan İnönü Universitetinin tələbəsi Murat Can Işık da Türkiyədə təhsil sistemi haqqında təqdimatla çıxış edərək, orada yataqxananın tapılması, büdcənin idarə olunması və görüləsi yerlər barədə məlumat verdi. Xəzər Universitetində mübadilə tələbəsi olaraq təhsil alan digər bir tələbə – Almaniyanın Tübingen Universitetindən Özgü Gürgör də öz universitetində təhsil və tələbə həyatı barədə təqdimatla çıxış etdi və tələbələrin Tübingen şəhəri haqqında suallarını cavablandırdı.

Students in their turn made their presentations for audience. Moozhan Serpoush, Khazar University's PhD student who completed her Erasmus+ exchange semester in Cadiz University in Spain shared her experiences with fellow students and gave her tips on how to make the best of your time there. Maryam Adli, a PhD student who went to Selcuk University as Mevlana exchange student during her master studies at Khazar also shared her experiences and answered students' questions. Khazar's incoming Mevlana exchange student from Inonu University, Murat Can Ishik presented overall information about education in Turkey and gave recommendations on finding accommodation, managing your budget, and enjoying your time in Turkey. Ozge Gurgor, Khazar's bilateral exchange student from Tubingen University in Germany also made a presentation about studies in Tubingen University, the studies and student life there. She also answered students' questions on the city Tubingen.







# XƏZƏR UNİVERSİTETİNDƏ ƏCNƏBİ TƏLƏBƏLƏR BİRLİYİNƏ SEÇKİLƏR

# ELECTIONS TO THE INTERNATIONAL STUDENT UNION AT KHAZAR UNIVERSITY

Noyabrın 5-də Xəzər Universiteti Beynəlxalq əlaqələr şöbəsi Əcnəbi Tələbələr Birliyinə seçkilərdə qalib gəlmiş şəxslərlə görüş keçirdi, onları təbrik etdi, onlara öhdəlikləri barədə məlumat verdi. Xəzər Universitetinin rəhbərliyi də ƏTB-yə lazımi dəstək göstəriləcəyini bildirdi.

Qeyd edək ki, Xəzər Universitetində Beynəlxalq əlaqələr şöbəsinin təşəbbüsü ilə Azərbaycanda ilk dəfə olaraq Əcnəbi Tələbə Birliyi (ƏTB) yaradılmışdır. Belə bir birliyin yaradılması əcnəbi tələbələrdə liderlik və ünsiyyət bacarıqlarının inkişaf etdirilməsi, tələbələrə mənsubluq hissinin aşılanması, habelə, tələbə hüquqlarının effektiv müdafiəsi baxımından əhəmiyyətlidir.

Oktyabrın 18-dən 21-dək ƏTB-nin qanunverici orqanı olan Şuranın tərkibini müəyyənləşdirmək üçün seçkilər keçirildi. Ümumilikdə, ƏTB-nin yaradılması tələbələr tərəfindən böyük maraqla qarşılandı. 8 nəfər əcnəbi tələbə öz cəmiyyətlərinin –Asiya, Avrasiya, Afrika və MENA-nın səsi olmağa namizədliklərini irəli sürmüş və seçki kampaniyalarını elan etmişdilər. Oktyabrın 22-də elan edilən seçkilərin nəticələrinə əsasən Pakistandan olan İmtiaz Ahmed - Asiya, Mohammed Abubakar Mohammed - Afrika, Ahmet Coşkun -Avrasiya, Abdulhussain Alrubai - Orta Şərq və Şimali Afrika(OŞŞA) regionları üzrə ƏTB-nin Şurasına üzv seçildilər.

On November 5, the Khazar University International Affairs Office held a meeting with the winners elected to the International Students Union (ISU), congratulated them, and informed them of their obligations. Khazar University Leadership has also stated that they will provide the necessary support to ISU.

It is worth mentioning that for the first time in Azerbaijan, The International Student Union (ISU) was established at Khazar University upon the initiative of Khazar University International Affairs Office. The establishment of such a union is important, with regards to its role in developing leadership and communication skills and instilling in international students a sense of belonging, as well as effectively protecting students' rights.

From October 18 to 21, 2019, elections were held to determine the composition of the ISU's legislative body. In general, the creation of the ISU was greatly welcomed by the students. Eight foreign students have nominated candidates for their communities - Asia, Eurasia, Africa and MENA - and have announced their election campaigns. Imtiaz Ahmed of Pakistan, Mohammed Abubakar Mohammed of Africa, Ahmet Coskun Eurasia and Abdulhussain Alrubai have been elected to the ADB Board of Elections based on the results of the elections announced on October 22.

# PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞININ MƏQALƏSİ YAYIMLANIB

# AN ARTICLE BY AN EMPLOYEE OF THE DEPARTMENT OF PSYCHOLOGY WAS PUBLISHED

2019-cu il noyabrın 5-də Xəzər Universitetinin müəllimi və doktorantı Nilufər Əlizadənin "Telefonla yazışmaq, yoxsa zəng etmək? – Bu seçimin psixososial səbəbləri..." adlı məqaləsi ***E.Tibb.az*** saytında yayımlanmışdır. Məqalədə son dövrlərdə 1980-ci, 1990-cı və 2000-ci illərin əvvəllərində dünyaya gəlmiş demoqrafik qrupların arasında sürətlə yayılmış telefonla bağlı təşviş pozuntusundan və telefonofobiadan, insanlarda bu halların yaranma səbəblərindən, professional köməyin necə alınmalı olunduğundan və nəhayət, psixoloqa müraciət etmədən gündəlik istifadə edilə biləcək texnikalar ilə bu halların öhdəsindən necə gəlmək lazım olduğundan bəhs olunmuşdur.

Məqaləni bu link vasitəsilə oxumaq olar:
*https://e-tibb.az/xeber/telefonla-yazismaq-yoxsa-zeng-etmek-bu-secimin-psixososial-sebebleri-1188*

On November 5, 2019, an article by Nilufar Alizade, Khazar University lecturer and PhD, entitled "Texting via telephone or calling? - The psychosocial reasons for this choice ..." was published on ***E.Tibb.az***. The article describes the rapid spread of telephone anxiety disorder and telephone phobia, amongst the demographic groups that were born in the late 1980s, 1990s and 2000s, the causes for the emergence of these effects in people, how to seek for professional help and, finally, how to deal with these situations through the techniques that can be used without attending a psychologist.

Those interested to gain more information may read the article through this link:
*https://e-tibb.az/xeber/telefonla-yazismaq-yoxsa-zeng-etmek-bu-secimin-psixososial-sebebleri-1188*

# PROFESSOR HAMLET İSAXANLI "SABAHIN XEYİR, AZƏRBAYCAN!" VERİLİŞİNİN QONAĞI OLDU

# PROFESSOR HAMLET ISAKHANLI THE GUEST OF THE PROGRAM "GOOD MORNING, AZERBAIJAN!"

2019-cu il noyabrın 6-da Xəzər Universitetinin təsisçisi, Direktorlar və Qəyyumlar Şurasının sədri professor Hamlet İsaxanlı İctimai Televiziyanın "Sabahın xeyir, Azərbaycan!" adlı canlı səhər verilişinin qonağı oldu. Professor Hamlet İsaxanlı veriliş zamanı dünyada və Azərbaycanda elmin inkişafı haqqında danışdı, elm və texnologiyanın əlaqələri, gənclərin elmə gəlməsi, təhsil və elm kimi məsələlər ətrafında suallara cavab verdi.

Verilişi bu link vasitəsilə izləmək olar:
*https://youtu.be/t11rIr6IcpU*

On November 6, 2019, Professor Hamlet Isakhanli, the Founder of Khazar University, Chairman of its Board of Directors and Trustees, was the guest of a live morning broadcast of Public Television "Good Morning, Azerbaijan!". During the broadcast Professor Hamlet Isakhanli talked about the development of science in the world and in Azerbaijan, and answered questions about the relationship between science and technology, youth coming up to science, education and science.

The program can be viewed at this link:
*https://youtu.be/t11rIr6IcpU*



# BERNDƏ AZƏRBAYCAN DİPLOMATİK XİDMƏT ORQANLARININ 100 İLLİYİ MÜNASİBƏTİLƏ TƏDBİR

# EVENT TO MARK 100th ANNIVERSARY OF AZERBAIJANI DIPLOMATIC SERVICE IN BERN

Noyabrın 4-də İsveçrə Konfederasiyasının paytaxtı Bern şəhərində Azərbaycan diplomatik xidmət orqanlarının 100 illiyi münasibətilə tədbir keçirildi. Tədbirdə İsveçrənin və Avropa İttifaqının rəsmi şəxsləri, Fransa və digər ölkələrin İsveçrədəki səfirləri və diplomatik korpusun əməkdaşları, Azərbaycan-İsveçrə İqtisadi Komissiyasının sədri və üzvləri, ictimaiyyət nümayəndələri iştirak edirdilər.

Azərbaycan tədbirdə Azərbaycanın İsveçrə Konfederasiyasında və Lixtenşteyn Knyazlığında fövqəladə və səlahiyyətli səfiri Xanım İbrahimova və Azərbaycan Respublikası Prezidenti Administrasiyasının Xarici siyasət məsələləri şöbəsinin müdiri Hikmət Hacıyevlə təmsil olunurdu. Tədbirdə səfir Xanım İbrahimova və Hikmət Hacıyev çıxış edərək, Azərbaycan diplomatik xidmət orqanlarının keçdiyi mürəkkəb və şərəfli yoldan, Azərbaycan-İsveçrə siyasi və iqtisadi əlaqələrindən danışdılar.

Tədbirdə İsveçrənin arxivlərində aparılan araşdırmalar nəticəsində ərsəyə gələn, İsveçrə və Azərbaycan arasında diplomatik əlaqələrin tarixinə dair tamamilə yeni faktlar üzə çıxaran kitabın təqdimatı keçirildi.

İştirakçılara Azərbaycan incəsənət ustalarının klassik musiqi konserti təqdim olundu. Xəzər Universitetinin Musiqi və incəsənət departamentinin müdiri, əməkdar müəllim, pianoçu Zülfiyyə Sadıqovanın müşayiəti ilə xalq artisti Fidan Hacıyeva Avropa və Azərbaycan bəstəkarlarının əsərlərini ifa etdi. Konsertdə yerli violençel ifaçısı Alina Kudelevits də iştirak edirdi.

On November 4, an event dedicated to the 100th anniversary of the diplomatic service of Azerbaijan was held in Bern, the capital of the Swiss Confederation. The event was attended by officials of Switzerland and the European Union, ambassadors and diplomatic mission representatives of France and other countries in Switzerland, Chairman and members of the Azerbaijan-Switzerland Economic Commission, and the public.

Azerbaijan was represented at the event by Khanym Ibrahimova, the Ambassador Extraordinary and Plenipotentiary of Azerbaijan to the Swiss Confederation and the Principality of Liechtenstein, and Hikmet Hajiyev, the Head of the Foreign Policy Department of the Presidential Administration of the Republic of Azerbaijan. Delivering speech at the event, Ambassador Ibrahimova and Hikmet Hajiyev talked about the complex and honorable path that Azerbaijan's diplomatic service agencies have had, the political and economic relations between Azerbaijan and Switzerland.

The book that has emerged as a result of research conducted at the Swiss Archives, revealing new facts about the history of diplomatic relations between Switzerland and Azerbaijan was presented at the event.

The participants were presented a classical music concert of Azerbaijani masters of art. People's Artist Fidan Hajiyeva performed songs of European and Azerbaijani composers accompanied by Zulfiyya Sadigova, Head of Music and Fine Arts Department at Khazar University, Honorary Teacher and pianist. Local violinist Alina Kudelevits also made a performance at the concert.



# XƏZƏR UNİVERSİTETİNDƏ NANOTEXNOLOGİYA LABORATORİYASI: NAİLİYYƏTLƏR VƏ YENİ MƏRHƏLƏLƏR

# NANOTECHNOLOGY LABORATORY AT KHAZAR UNIVERSITY: ACHIEVEMENTS AND NEW MILESTONES

2017-ci ildə qurulduğu gündən başlayaraq, Nanotexnologiya laboratoriyası öz missiyası istiqamətində çalışır və yeni yaranmış vəziyyətdə olan laboratoriyam gələcək nəslin məhsul yönümlü laboratoriyaya keçidini sürətləndirən elmi araşdırmalardakı uğurlarını elan etməkdən qürur duyur.

Web of Science (WOS) qeydlərinə əsaslanaraq:

- 40-dan çox ISI məqaləsi Q1 və Q2 jurnallarında dərc edilmişdir.
- 4 elmi iş yüksək sitat gətirilən məqalələr, 1-i isə Hot Paper kimi seçilmişdir.
- Qeyd edək ki, Azərbaycanda mühəndislik sahəsində cəmi 1 Hot Paper var və o, Xəzər Universitetinə aiddir.
- Sitat məsələsinə gəldikdə, Web of Sciencedə yayımlanan məlumatlardan göründüyü kimi, 2017-ci ildə Nanotexnologiya laboratoriyasının təsis edilməsindən sonra universitetlə əlaqəli sitatlardakı kəskin dəyişiklik müşahidə edilə bilər. Bu, o deməkdir ki, sitat olan məqalələrin bir çoxu Nano-laboratoriya işçiləri tərəfindən, xüsusən, Xəzər Universitetinin Nanotexnologiya laboratoriyasının müdiri doktor Rasoul Moradi tərəfindən nəşr olunmuşdur.

Yuxarıda göstərilən məlumatları nəzərə alaraq, tədqiqat qrupunun üzvləri digər milli və beynəlxalq tədqiqat mərkəzləri və təşkilatları ilə əməkdaşlığı genişləndirmək üçün yeni mərhələləri hədəf alırlar. Artıq Azərbaycanın Bakı Dövlət Universiteti, Türkiyənin Eskişehir Osmangazi Universiteti, Ondokuz Mayis Universiteti, Orta Doğu Texniki Universiteti, İranın Tehran Tibb Elmləri Universiteti, Mohaggeg Ardabili Universiteti, Cənubi Koreyanın Milli Tədqiqat Vəqfi və ABŞ-ın Los-Anceles Kaliforniya Universiteti (UCLA) ilə praqmatik danışıqlar aparılır.

Since its establishment in 2017, Nanotechnology laboratory has been chasing its mission and now is proud to announce its achievements in scientific research which will accelerate its transition from embryo-lab to next generation product orientated Lab.

Based on the records from the Web of Science (WOS):

More than 40 ISI articles were published in Q1 and Q2 journals

4 papers are selected as highly cited articles and 1 paper as the Hot paper

It worth to mention that throughout Azerbaijan there is only 1 Hot paper in the field of engineering and that belongs to Khazar University

Regarding citation, as it could be found in the Web of Science released data, a sharp change in the university affiliated citations could be seen after founding of the Nanotechnology lab in 2017. This means that many of scientific citations are due to those works published by Nano-lab associates, especially by Dr. Rasoul Moradi, the head of the Nanotechnology lab at Khazar University.

Considering all the above, our research team members are targeting new millstones to expand collaboration with other national and international research centers and organizations. Already some pragmatic negotiations are underway with Baku State University in Azerbaijan, Eskisehir Osmangazi University, Ondokuz Mayis University, and Middle East Technical University in Turkey; Tehran University of Medical Science, and the University of Mohaggeg Ardabili in Iran; the National Research Foundation of South Korea, and the University of California in Los Angeles (UCLA).












## XƏZƏR UNİVERSİTETİNİN ƏMƏKDAŞI İKİ XARİCİ ELMİ JURNALIN REDAKSİYA HEYƏTİNƏ ÜZV SEÇİLİB

Xəzər Universitetinin Humanitar, təhsil və sosial elmlər fakültəsinin dekanı dosent Elza Səmədova Koreyanın Dongduk Qızlar Universitetinin (*Dongduk Woman University*) "Avrasiya Türk Araşdırmaları (*The Journal of Eurasian Turkic Studies*)" və Macarıstanda çap olunan "Hungarian Educational Research Journal (HERJ)" jurnallarının redaksiya heyətlərinin üzvü seçilmişdir. "Avrasiya Türk Araşdırmaları" jurnalı Hanyang Universiteti, Asiya-Pasifik Tədqiqat Mərkəzi, Avrasiyanın hüdudlarında və xaricində genişlənən əlaqələri öyrənən Avrasiya Türk Araşdırmaları İnstitutu tərəfindən iki ildən bir nəşr edilən jurnaldır.

HERJ Macar Təhsil Tədqiqatları Jurnalı təhsil tədqiqatındakı cari fikir və mövzulara yönəlmiş akademik bir jurnaldır.

## KHAZAR UNIVERSITY EMPLOYEE SELECTED AS MEMBER TO THE EDITORIAL BOARD OF TWO ACADEMIC JOURNALS

Associate Professor Elza Samadova, Dean of the School of Humanities, Education and Social Sciences at Khazar University, has been selected as a member of the editorial boards of the Dongduk Woman University of Korea, "The Journal of Eurasian Turkic Studies" and "Hungarian Educational Research Journal (HERJ)". "The Journal of Eurasian Turkic Studies" is a journal published once in two-years by the Eurasia Institute of Turkic Studies, which is dedicated to explore expanding relationships within and beyond Eurasia by Hanyang University, the Asia-Pacific Research Center.

At the same time, the HERJ Hungarian Educational Research Journal is an academic journal that focuses on current ideas and topics in educational research.

## PSİXOLOGİYA DEPARTAMENTİNİN ƏMƏKDAŞI "ÇIXIŞA DOĞRU"NUN QONAĞI OLDU

## FACULTY MEMBER OF PSYCHOLOGY DEPARTMENT GUEST OF "CHİHİSHA DOGRU" PROGRAM

Noyabrın 6-da Xəzər Universitetinin Psixologiya departamentinin müəllimi və doktorantı Nilufər Əlizadə Azərbaycan Dövlət Televiziyasında yayımlanan "Çıxışa doğru" proqramının psixoloq-eksperti kimi çıxış etdi. Proqramın əsas mövzusu müasir və ənənəvi uşaq ədəbiyyatı və bu ədəbiyyatın uşaqların fərd olaraq forlamaşmasında psixososial rolu idi.

Verlişi bu link vasitəsilə izləmək olar:

*https://www.youtube.com/watch?v=d9Og3hxodQs*

On November 6, Nilufar Alizade, an instructor and PhD student at the Department of Psychology at Khazar University, took part in the "Chihisha dogru" program, broadcasted on Azerbaijan State Television, as a psychologist-expert. The main theme of the program was modern and traditional children's literature and the psychosocial role of this literature in the formation of children as individuals.

The program can be viewed at this link:

*https://www.youtube.com/watch?v=d9Og3hxodQs*



# QOBUSTAN DÖVLƏT TARİXİ-BƏDİİ QORUĞUNUN ƏMƏKDAŞI TƏLƏBƏLƏRLƏ GÖRÜŞDÜ

# EMPLOYEE OF GOBUSTAN STATE HISTORICAL-ARTISTIC RESERVE MET WITH STUDENTS

Noyabrın 6-da Xəzər Universitetində Humanitar, təhsil və sosial elmlər fakültəsi tarix müəllimliyi ixtisasının I və II kurs tələbələrinin Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun elmi katibi Rəhman Abdullayev ilə görüşü keçirildi. Görüşdə Rəhman Abdullayev tələbələrə Qobustan Dövlət Tarixi-Bədii Qoruğunun milli irsindən, Qobustanın öyrənilməsi, qorunması və qayaüstü incəsənəti haqqında geniş məlumat verdi.

Görüş zamanı Qobustan Dövlət Tarixi-Bədii Qoruğu ilə yanaşı, dünyanın qayaüstü incəsənəti haqqında da geniş söz açıldı.

On November 6, a meeting of the 1st and 2nd-year students, majoring in History (Teaching), from the School of Humanities, Education and Social Sciences met with Rahman Abdullayev, the scientific secretary of the Gobustan State Historical-Artistic Reserve. At the meeting, Rahman Abdullayev informed the students about the national heritage of the Gobustan State Historical-Artistic Reserve, about Gobustan studies, its preservation and rock art of Gobustan. During the meeting with the Gobustan State Historical-Artistic Reserve, an extensive talk was also made about the world rock art.



## XƏZƏR UNİVERSİTETİ "ƏCDADLARIN XATİRƏSİ GÜNÜ"NÜ MEKSİKANIN AZƏRBAYCANDAKI SƏFİRLİYİ İLƏ BİRLİKDƏ QEYD ETDİ

## KHAZAR UNIVERSITY CELEBRATES DAY OF THE DEAD WITH EMBASSY OF MEXICO IN AZERBAIJAN

Noyabrın 6-da Xəzər Universitetinin "Neftçilər" kampusunda Meksika Birləşmiş Ştatlarının Azərbaycan Respublikasındakı Səfirliyinin dəstəyi ilə Meksikanın Bayramı olan "Əcdadların Xatirəsi Günü" qeyd olundu.

Tədbiri Xəzər Universitetinin rektoru Dr.İradə Xəlilova açdı. O, cənab Səfir Rodrigo Labardiniyə bayram münasibətilə xoş arzularını çatdırdı.

Sonra qısa animasiya filmi nümayiş etdirildi. Film ölümün də həyatın bir hissəsi olduğunu vurğulayırdı. Bunun ardınca, səfir Meksika ənənələri, habelə, bayramın Meksika xalqı üçün əhəmiyyəti barədə ətraflı məlumat verdi.

Universitetin foyesində bu bayramın ənənələrini təcəssüm etdirən ənənəvi stend də qurulmuşdu. Stenddə əcdadların xatirəsini əks etdirən şəkillər, müxtəlif simvolik qidalar – su, meyvə, xüsusi formalı çörək, şam, gül və Meksikanın milli geyimləri sərgilənmişdi. Səfirin stendin önündəki izahlı təqdimatı tələbələrə Meksika adət-ənənələri ilə daha yaxından tanış olmaq imkanı verdi. Günün sonunda tələbələr səfirlə xatirə şəkilləri çəkdirdilər.

On November 6, a Mexican public holiday- Day of the Dead (Día de Muertos in Spanish) *was celebrated at Khazar University's Neftchiler campus with the support of* the Embassy of the United Mexican States in Azerbaijan.

In her opening statement, Prof. Irada Khalilova, Rector of Khazar University, delivered a welcome speech and expressed her respects to H.E. Mr. Rodrigo Labardini, Ambassador of Mexico to Azerbaijan.

Following that, the short animation film with a message that death is a natural part of the life cycle was screened. Then Ambassador delivered presentation on existing traditions, values, and the importance of the celebration for the Mexican people.

As a part of its traditions, the special altar containing water, the special form bread, candle, fruits and vegetables, cultural embellishments, photos of the dead peoples and the traditional flower and costume was decorated at the university lobby. Students got a chance to have a closer look at Mexican traditions and culture through the explanatory introduction of the Ambassador. The day was concluded with memory photos.




Fərabi
KHAZAR



# DOKTORANT VƏ MAGİSTRANTLAR NAR FESTİVALINDA





Noyabrın 9-da Xəzər Universitetinin PhD və Magistr Assosiyasiyası Göyçaya səfər təşkil etdi. Xəzər Universitetinin doktorantları və magistr tələbələri rayonda ənənəvi Nar festivalının qonağı oldular. Onlar insanlarla və Azərbaycan mədəniyyəti ilə tanış olmaq üçün yaxşı imkan əldə etdilər. Bu səfərdə universitetin Həyat elmləri departamentinin tədqiqatçısı dosent Səidə Şərifova və Multimedia mərkəzinin direktoru Natella Barkaya da iştirak edirdilər. Festivaldan sonra tələbələr İngilis dili və ədəbiyyatı departamentinin baş müəllimi Firəngiz Nəsirovanın Göyçaydakı evində ətirli Azərbaycan çayı içdilər.

Səfərdən qayıtdıqdan sonra tələbələr öz təəssüratlarını bölüşdülər:

**Mohammed Abubakar Mohammed,** *Neft və qaz mühəndisliyi departamentinin doktorantı*: "Həqiqətən, əlamətdar bir səfər idi. Mənim festivalda iştirakım yerlilərin diqqətini çəkdi – onlar festivalda iştirak edən qara bir əcnəbi görəndə heyrətləndilər. Sırf bu hərəkət Nar festivalını xaricilərin iştirak etmək istədiyi beynəlxalq bir festival halına gətirə bilər. Universitetimizin müəlliminin evində qonaq olmağımız ləzzət verdi. Firəngiz xanım və onun gözəl ailəsi bizi evlərində çay və şirniyyata qonaq etdilər. Belə səfərlər tələbələr və kollektiv arasında birlik ruhunu inkişaf etdirir və fikrimcə, bu cür tədbirlər təşviq olunmalı və dəstəkənməlidir".

*(Ardı səh.74-də)*



# MASTER AND PHD STUDENTS AT POMEGRANATE FESTIVAL

On 9th November Khazar University PhD & Master Association organized a trip to Goychay. PhD and master students of Khazar University were hosted at the Pomegranate Festival. They had a great opportunity to socialize and to become acquainted with Azerbaijani culture. Associate Professor Saida Sharifova, researcher at Life Sciences Department and Natella Barkaya, Head of the Multimedia Center of the University also participated in this trip. After the Festival students tasted an Azerbaijanian traditional tea at the country house in Goychay of Dr.Firangiz Nasirova PhD, Head Instructor at the English Language and Literature Department.

Below you can find students' feedbacks, participated at the event:

**Mohammed Abubakar Mohammed,** ***PhD, Development and Exploitation of Oil and Gas Field.*** "Indeed, it was a remarkable trip. My presence sparked attention of the locals as they were amazed to see a black foreigner attending the Festival. This singular act could make the Pomegranate Festival an international festival in which foreigners would love to attend. A stopover at the residence of our University's lecturer added a flavor to the trip. She and her beautiful family gave us a warmly reception at her country home with delicious chay and candies. Trips like this foster the spirit of togetherness among students and staff and such should be encouraged and supported".

*(To be continued page 74)*







**Hawa Adli,** *Həyat elmləri departamentinin doktorantı*: "Həqiqətən, xatırlamaq və bölüşmək üçün gözəl tədbir idi. Sadəcə, möhtəşəm bir bölgənin olduğunu aşkar etdim, buralara aşiq olmuşam. Xoş havanı, mövsümün müxtəlif çeşidli meyvələrini və xüsusilə narın dadını unutmaq mümkünsüzdür. Bu səfər bu günə qədər bütün səyahət anlarımın ən yaddaqalanı idi. Sonda universitetimizə belə şərait və imkanları təmin etdiyi üçün təşəkkür edirəm.

**Maryam Adli,** *İqtisadiyyat və menecment departamentinin doktorantı*: "Xarici doktorant tələbələrlə Nar festivalına etdiyim səfər əla və yaddaqalan oldu. Göyçay bol məhsul və müxtəlif nar növləri ilə tanınır. Festival musiqi və rəqs qruplarının iştirakı ilə açıldı. Nar festivalı Azərbaycanda ənənəvi keçirilən və sevindirici hadisələrdən biridir. Qonaqlara nar məhsullarından ibarət ekspozisiya göstərildi, əlverişli satış təşkil edildi, ifaçıların və folklor qruplarının iştirakı ilə konsert, müxtəlif müsabiqələr, məsələn, çəkisinə və ya şirəsinə görə nar müsabiqələri də maraqla qarşılandı. Təzə nar şirəsinin dadı əvvəllər içdiklərimin ən dadlısı idi, buna görə də, bir neçə dəfə sifariş verdim".

**İmtiaz Əhməd,** *Neft və qaz mühəndisliyi departamentinin magistrantı*: "Səfər gözəl idi; Bakıdan sonra Azərbaycanda gördüyüm ikinci şəhərdir. Bu şəhər turizm potensialına malikdir. Mənim üçün ən təəccüblüsü ev sahibi, Xəzər Universitetinin müəllimidir. Evindən çölə çıxaraq bizi qarşıladı, hər kəsi qucaqladı, bizə ənənəvi çay və şirniyyat süfrəsi açdı və ləzzətli nara qonaq etdi – Pakistanda olduğumu hiss etdim. Belə mehribanlıq və təvazökarlıq mənim kimi bir tələbə üçün əvəzolunmazdır, çünki əcnəbi tələbə üçün hər şey yenidir: insanlar, mədəniyyət və ənənələr... Buna görə də, mehriban və həmişə qonaqpərvər olan bu cəmiyyətin bir hissəsi olduğumu hiss edirəm".

**Hawa Adli,** *PhD student at Life Science Department.* "It was indeed an event full of the moments to remember and to share. I just discovered there was a magnificent place, and I completely fell in love with this place. The pleasant weather, a wide variety of fruits of the season and specially the taste of the pomegranates are the points impossible to forget. This experience was the most memorable of all my travel moments until today. At the end, I want to express my gratitude to the University for providing us this great opportunity and facilities".

**Maryam Adli,** *PhD Student of Economics and Management.* "My tour to the annual Pomegranate festival with other International PhD students was excellent and memorable. Goychay is known for its delicious pomegranates, plentiful harvests and variety of pomegranate types. The festival opened with the participation of music and dance groups. The pomegranate festival is one of the most long-awaited and enjoyable events in Azerbaijan. The guests were presented with an exposition of products from pomegranate, an exhibition of works, a fair sale, a concert with the participation of popular performers and folklore groups, various competitions, for example, for the heaviest garnet by weight or pressing juice. The fresh pomegranate juice taste was the yummiest that I have ever drank that's why I ordered it several times.

**Imtiaz Ahmed,** *MS student of Petroleum Engineering.* "The trip was amazing; it is the second city I visited in Azerbaijan after Baku. This city has the great potential for tourism. The most amazing thing for me is our host, a teacher at Khazar University. She welcomed us by coming outside of her home, hugged each and everyone, served us a traditional tea and sweets and pomegranates - and it felt like I am in Pakistan. Such acts of kindness and humbleness matter a lot for an international student like me, for whom everything is new: people, culture and traditions… Now, it feels like I am part of this society who is friendly, kind and always welcoming".









# DEKAN TƏLƏBƏLƏRİ TƏBRİK ETDİ

Noyabrın 13-də Xəzər Universiteti Təbiət elmləri və mühəndislik fakültəsinin dekanı Dr. Hassan Niknafs noyabrın 7-dən 11-dək Macarıstanda keçirilmiş Dünya Robot Olimpiadasında ölkəmizi təmsil etmiş fakültənin tələbələrindən ibarət komandanın üzvləri ilə görüşdü. Dr. Hassan Niknafs tələləbələri qazandıqları uğur münasibətilə təbrik etdi, onlara daha böyük uğurlar arzuladı və fakültə adından hədiyyələr təqdim etdi.

Qeyd edək ki, Macarıstanda dörd gün davam edən yarışın sonunda Təbiət elmləri və mühəndislik fakültəsinin tələbələri Tamerlan Abdullayev, Tuqay Abdullazadə və Səməd Cabbarlıdan ibarət komanda robototexnika sahəsində yenilikləri ilə tanınan ölkələri –Amerika Birləşmiş Ştatları, Cənubi Koreya, Hindistan, Tayland və Çini üstələyərək, 83 komanda arasında 33-cü yeri tutmağa müvəffəq olmuşdur. Komandaya kompüter mühəndisliyi ixtisası üzrə təhsil alan dördüncü kurs tələbəsi Emin Bayramov rəhbərlik edirdi.

Görüşdə, həmçinin, Təbiət elmləri və mühəndislik fakültəsində kompüter mühəndisliyi və kompüter elmləri ixtisasları üzrə təhsil alan birinci kurs tələbələri də iştirak edirdilər. Görüş zamanı müsabiqədə iştirak edən komandamıza rəhbərlik edən Emin Bayramov tələbələrlə müsabiqə ilə bağlı təəssüratlarını bölüşdü və tələbələrin suallarını cavablandırdı.

# DEAN CONGRATULATES STUDENTS

On November 13, Dr. Hassan Niknafs, Khazar University Dean of the School of Science and Engineering met with the members of the team, consisted of the Faculty Students, who represented our country at the World Robot Olympiad held in Hungary on November 7-11. Dr. Hassan Niknafs congratulated the students on their achievements, wished them further success and presented gifts on behalf of the faculty.

It is worth mentioning that at the end of the four-day competition in Hungary, a team of students from the School of Science and Engineering consisting of Tamerlan Abdullayev, Tugay Abdullazade and Samad Jabbarli, succeeded in holding 33$^{rd}$ place among 83 teams, surpassing United States of America, South Korea, India, Thailand, China, countries well-known for innovations in robotics. The team was led by Emin Bayramov, a fourth-year student majoring in Computer Engineering.

The meeting was also attended by first-year students of the School of Science and Engineering majoring in Computer Engineering and Computer Science. During the meeting, Emin Bayramov, who led the competition team, shared his impressions on the competition and answered the students' questions.

## ÖLKƏ SAYTLARI DÜNYA ROBOT OLİMPİADASINDA AZƏRBAYCANI TƏMSİL ETMİŞ XƏZƏR UNİVERSİTETİNİN TƏLƏBƏLƏRİNDƏN İBARƏT KOMANDANIN UĞURU HAQQINDA XƏBƏR YAYMIŞLAR

## COUNTRY'S WEBSITES REPORTED ON SUCCESS OF KHAZAR UNIVERSITY STUDENT TEAM REPRESENTING AZERBAIJAN AT WORLD ROBOT OLYMPIAD

2019-cu il noyabrın 12-13-də ölkə saytları noyabrın 7-dən 11-dək Macarıstanda keçirilmiş Dünya Robot Olimpiadasında Azərbaycanı təmsil etmiş Xəzər Universitetinin tələbələrindən ibarət komandanın uğuru haqqında xəbər yaymışlar:

*https://www.yenigence.com/iii-robot-olimpiadasinin-qalibl%c9%99ri-olk%c9%99mizi-dunya-robot-olimpiadasinda-t%c9%99msil-edib/*

*http://son.az/az/news/568476/iii-robot-olimpiadasi-nin-qalibleri-olkemizi-dunya-robot-olimpiadasi-nda-temsil-edib-foto*

*https://az.trend.az/azerbaijan/sports/3148523.html*

*https://olaylar.az/news/sosial/358099* və s.

On November 12-13, 2019, country's websites reported about the success of Khazar University Student Team representing Azerbaijan at the World Robot Olympiad held in Hungary from November 7 to 11:

*https://www.yenigence.com/iii-robot-olimpiadasinin-qalibl%c9%99ri-olk%c9%99mizi-dunya-robot-olimpiadasinda-t%c9%99msil-edib/*

*http://son.az/az/news/568476/iii-robot-olimpiadasi-nin-qalibleri-olkemizi-dunya-robot-olimpiadasi-nda-temsil-edib-foto*

*https://az.trend.az/azerbaijan/sports/3148523.html*

*https://olaylar.az/news/sosial/358099*








TRUST YOURSELF
BREAK
Rules

# DÜNYANIN ƏN GÖZƏL KİTABXANALARI

*TUT.BY xəbər portalı memarlıq nöqteyi nəzərindən dünyanın 28 ən gözəl və qeyri-adi kitabxanasını təqdim etmişdir. Oxucularımızı onlarla tanış edirik.*

## Avstriya

### Müqəddəs Florian monastırının kitabxanası

Müqəddəs Florian monastırının kitabxanası Avropanın ən qədim kitabxanalarından biridir. Burada 150 000 cild kitab saxlanılır. Kitabxanada, həmçinin, XVI əsrdən başlayaraq sonrakı dövrlərə də aid ən nadir xəritələr kolleksiyası vardır.



# QƏBUL QAYDALARI

## DÜNYA MƏKTƏBİ

Məktəbə qəbul müsabiqə yolu ilə həyata keçirilir. Müsabiqede iştirak etmek üçün mektebe gelmekle, bize zeng etmekle ve ya online qeydiyyatdan keçə bilersiniz.

**http://e.dunyaschool.az/sagirdqebul/**

Müsabiqədə şagirdlərin təhsil aldıqları sinfə uyğun bilik səviyyəsi, sağlamlığı, maraq dairesi esas götürülür. Her bir şagirdin ferdi xüsusiyyətlərini öyrənmək üçün valideynlərlə söhbətlər aparılır.

Qebul imtahanında en yüksek netice gösteren VIII-XI sinif şagirdləri təqaüd imkanı qazanırlar.

İngilis bölmesinde tedris Beynelxalq Bakalavr Teşkilatının (IB) ibtidai (PYP), orta məktəb (MYP) və Diplom proqramları (DP) əsasında qurulur. Diplom proqramında təhsil müddeti iki ildir (X,XI siniflər).

Azerbaycan ve rus bölmelerinde ingilis dili ikinci dil kimi beynelxalq standartlara uyğun tədris olunur. Şagirdlərin seçimi ilə fransız, alman ve ya çin dili de öyredilir.

Dünya məktəbində fikirləşməyi öyrətmək prinsipi əsas götürülür ve tedris prosesinin teşkili bu yönümde qurulur. Siniflərdə şagird sayının az olması hər bir şagirdə ferdi yanaşmağa imkan yaradır.

Sağlam esaslar üzerində qurulmuş ciddi nizam-intizam telim-terbiye prosesinin yüksek seviyyede teşkiline kömek edir.

## DÜNYA ANA MƏKTƏBİ

Ana Məktebine qebul zamanı her bir uşağın fərdi xüsusiyyetlerini öyrenmek üçün mektebin psixoloqu valideynlerle ferdi söhbetler aparır. Uşaqlar psixoloji müayineden ve hekim müayinesinden keçirilir. Uşaqların sağlamlığı, normal qavrama qabiliyyeti, selis nitqi ve maraq dairesi esas götürülür. Mektebe qebul edilecek şagirdler "Şagird qebulu üzrə məktebdaxili komissiya"nın rəyi esasında müeyyen edilir ve mekteb rehberinin emri ile resmileşdirilir.

Qebul üçün teleb olunan senedler:

- Ərizə
- 4 eded fotoşekil (3x4, rengli)
- Doğum haqqında şəhadətnamənin surəti
- Tibbi arayış
- Yaşayış yeri haqqında arayış
- Valideynin iş yeri haqqında arayış

**ÜNVAN**

Əcəmi Naxçıvani 9

**TELEFONLAR**

+994 12 563 59 40/47/48

+994 55 632 95 28

XƏZƏR UNİVERSİTETİ

HƏR GÜN, HƏR SAAT MÜKƏMMƏLLİYƏ DOĞRU!

# NİYƏ XƏZƏR UNİVERSİTETİ?

- Diplomların bütün xarici ölkələrdə tanınması
- Dövlət sifarişi əsasında təhsil almaq imkanı
- Eyni vaxtda 2 ixtisas üzrə təhsil almaq imkanı
- Təhsil haqqının Azərbaycan Respublikasının Dövlət İmtahan Mərkəzinin (keçmiş TQDK) imtahanlarında yığılan ballara uyğun olaraq ödənilməsi
- Təhsil haqqının hissə-hissə ödənilməsi
- Zəngin kitabxana, innovativ laboratoriyalar, müasir informasiya-kommunikasiya texnologiyaları infrastrukturunun varlığı
- Dövlət sifarişi və ya ödənişli təhsil almalarından asılı olmayaraq, təhsildə göstərdikləri nailiyyətlərə görə təqaüd almaq imkanı
- Əlavə ödəniş etmədən təhsilinin bir hissəsini Amerika, Avropa və Asiyanın tanınmış ali məktəblərində davam etdirmə imkanı
- Keyfiyyətli və əhatəli tələbə xidmət sistemi (həkim, psixoloji mərkəz, karyera-işə düzəlmə mərkəzi və s.)
- Yüksək standartlara cavab verən müasir yataqxana

## TƏHSİL HAQQININ ÖDƏNİLMƏSİNDƏ GÜZƏŞTLƏR

650-700 bal - təhsil haqqından tam azad edilir
600-649 bal - təhsil haqqının ödənilməsində 50% güzəşt edilir
550-599 bal - təhsil haqqının ödənilməsində 40% güzəşt edilir
500-549 bal - təhsil haqqının ödənilməsində 25% güzəşt edilir
450-499 bal - təhsil haqqının ödənilməsində 20% güzəşt edilir
400-449 bal - təhsil haqqının ödənilməsində 15% güzəşt edilir
350-399 bal - təhsil haqqının ödənilməsində 10% güzəşt edilir

Uğurlu karyera qurmaq, təhsildən zövq almaq və yadda qalan tələbə həyatı yaşamaq istəyirsən?

**Xəzər Universitetini seç!**

## BAKALAVR SƏVİYYƏSİNDƏ İXTİSASLARIMIZ

### 1 QRUP

- Kompüter elmləri
- Kompüter mühəndisliyi
- Neft-qaz mühəndisliyi
- İnşaat mühəndisliyi
- Elektronika, telekommunikasiya və radiotexnika mühəndisliyi
- Kimya mühəndisliyi
- Mexanika mühəndisliyi
- Riyaziyyat və informatika müəllimliyi
- Fizika müəllimliyi

### 2 QRUP

- Mühasibat uçotu və audit
- Maliyyə
- İqtisadiyyat
- Menecment
- Marketinq
- Biznesin idarə edilməsi
- Turizm və otelçilik
- Regionşünaslıq (Avropa)
- Beynəlxalq münasibətlər
- Coğrafiya müəllimliyi

### 3 QRUP

- İngilis dili və ədəbiyyatı
- Azərbaycan dili və ədəbiyyatı
- Tərcümə (ingilis dili)
- Politologiya
- İngilis dili müəllimliyi
- Azərbaycan dili və ədəbiyyatı müəllimliyi
- İbtidai sinif müəllimliyi
- Tarix müəllimliyi

### 4 QRUP

- Kimya müəllimliyi
- Biologiya müəllimliyi
- Kimya və biologiya müəllimliyi
- Psixologiya

### 5 QRUP

- Dizayn